Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

27
SENTYABR
2019-cu il

№ 172 (4070)

Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# PAŞİNYANA QARŞI ƏYALƏT QİYAMLARININ ANONSU FERMERLƏRDƏN GƏLDİ

■ səh. 5 ■

ABŞ səfiri Tramp-Paşinyan görüşünün vaxtı barədə suala ermənilərin ümidini kəsən cavab verdi

■ səh. 7 ■

Ermənistan müdafiə nazirinin öldürülmüş Azərbaycan əsgəri barədə ziddiyyətli xəbərləri...

■ səh. 4 ■

Nəqliyyat dəhlizləri Azərbaycanın beynəlxalq mövqeyinin güclənməsinə yeni imkanlar açdı...

■ səh. 10 ■

Ermənistanın ən qalmaqallı cinayət hadisəsinin şahidləri bir-bir aradan götürülür

■ səh. 6 ■

Paşinyanla arvadı, nəhayət, Trampla şəkil çəkdirə bildilər...

■ səh. 10 ■

İran Ermənistana üçüncü elektrik xətti çəkilişini niyə dayandırdı...

■ səh. 7 ■

Sosial dəstək sahəsində yeni layihə - bağlanmış banklarda batmış sayılan sığortalanmamış əmanətlər qaytarılacaq...

■ səh. 3 ■

Qida Təhlükəsizliyi Agentliyinə misilsiz ittiham - "Leş Tofiq"ə sertifikatı kim verib...

■ səh. 12 ■




■ səh. 8 ■

## Çinin böyük ixrac və Azərbaycanın güclü qovşaq potensialları - dünya yeni reallıq qarşısında...



Bakıda parkovkanın vəziyyəti şəxsən Prezidenti də narahat etdi - Vüsal Kərimlinin izahatı Prezidenti razı saldımı...

■ səh. 3 ■

Nyu-York görüşü Paşinyanla danışıq aparılmasının mənasızlığını aydın göstərdi

■ səh. 9 ■



Elmar Məmmədyarov BMT Təhlükəsizlik Şurasının Nazirlər Debatında regional beynəlxalq təşkilatları prinsipial şəkildə vurdu

■ səh. 4 ■

■ səh. 5 ■

Həmsədrlərin son birgə bəyanatını sanballı siyasi sənəd saymaq olarmı...



■ səh. 6 ■

BMT Baş katibi Paşinyana nələr deməli idi? - BMT-nin qeyri-ciddi quruma çevrildiyinə daha bir sübut...



■ səh. 11 ■

Son bir ildə sosial paketlər və Azərbaycanda ailə dayanıqlığı - boşanmalara nə kimi təsirlər var...



■ səh. 14 ■

Dissertasiya müdafiəsində yorucu "kağızçılıq" aradan qaldırılır



■ səh. 11 ■

Bakı uşaq nikahlarının sayına görə "liderdir"...



## Minsk Qrupunun həmsədrləri regiona yenidən nə üçün səfər etmək niyyətindədir?

**ATƏT-in Minsk Qrupunun həmsədrləri (Rusiyadan İqor Popov, Fransadan Stefan Viskonti və ABŞ-dan Endryu Şofer) BMT Baş Assambleyasının iclasında ayrı-ayrılıqda və birgə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyanla görüşüblər.**




"Trend"in ATƏT-in rəsmi saytına istinadən verdiyi məlumatına görə, onlar həmçinin ATƏT-in baş katibi Tomas Greminger, ATƏT-in fəaliyyətdə olan sədri, Slovakiyanın xarici işlər naziri Miroslav Layçak və BMT-nin yüksək səviyyəli rəsmiləri ilə görüşüblər.

Bəyanatda qeyd olunur ki, həmsədrlər nazirlərə iyun ayında Vaşinqtonda keçirilən birgə görüşdən sonra, o cümlədən Dağlıq Qarabağ münaqişəsi ilə bağlı humanitar və təhlükəsizlik aspektləri üzrə Paris və Cenevrədəki son müşavirələrdən sonra fəaliyyətləri barədə məlumat veriblər: "Həmsədrlər və nazirlər gərginliyi azaltması və barışığa və əsaslı danışıqlar üçün şərait yaradan əlavə tədbirləri müzakirə etməyə davam ediblər".

Həmsədrlərin yaxın vaxtlarda bölgəyə səfər etmək niyyətində olduğu da deyilir.

## Türkiyə, Pakistan və Malayziya islamofobiya əleyhinə birgə telekanal yaradır

**Türkiyə, Pakistan və Malayziya islamofobiya ilə mübarizə aparmaq üçün ingilis dilində ortaq bir televiziya kanalı yaratmaq barədə razılığa gəlib. Baki-xeber.com xəbər verir ki, bunu Pakistan baş naziri İmran Xan deyib.**



Bu barədə BMT Baş Assambleyasının 74-cü sessiyası çərçivəsində Nyu-Yorkda bu ölkələrin liderləri Rəcəb Tayyib Ərdoğan, İmran Xan və Mahathir Məhəmməd arasında üçtərəfli görüşdə razılıq əldə olunub.

"Prezident Ərdoğan, Baş nazir Mahathir və mən görüşdə üç ölkənin ortaq olaraq islamofobiya meyllərinə qarşı səylərin gücləndirilməsi və ali dinimiz İslam haqqında anlaşılmazlıqları düzəltmək üçün ingilis dilində bir kanal yaratmağa qərar verdik" - Xan sosial media hesabında yazıb. Xan müsəlmanlarla bağlı yanlış təsəvvürlərin bu şəkildə aradan qaldırılacağını deyib: "İnsanları məlumatlandırmaq və maarifləndirmək üçün müsəlmanların tarixi haqqında filmlər və seriallar çəkiləcək, müsəlmanlar üçün xüsusi bir media açılacaq".

## Zümrüd Yağmurun Fuad Qəhrəmanlıdan boşanma işi üzrə məhkəmə prosesi təxirə salındı - Qəhrəmanlı və vəkili iclasa gəlmədi

**Abşeron Rayon Məhkəməsində Zümrüd Yağmurun boşanma ərizəsi əsasında həyat yoldaşı, AXCP sədrinin sabiq müavini Fuad Qəhrəmanlıya qarşı məhkəmənin hazırlıq iclası təxirə salınıb.**



"Trend"in məlumatına görə, məhkəmənin təxirə salınmasına səbəb F.Qəhrəmanlı və vəkilinin iclasa gəlməməleri olub. Qeyd edək ki, sentyabrın 19-da F.Qəhrəmanlının qızı Selcan Yağmur atasından imtina etməsi ilə bağlı məlumat yayıb. O, imtinaya səbəb kimi özünün, bacısının və anası Zümrüd Yağmurun F.Qəhrəmanlı tərəfindən dəfələrlə zorakılıq, təzyiq və şiddətlərə məruz qalmasını göstərib. Zümrüd Yağmur boşanma ərizəsi ilə məhkəməyə müraciət edib. F.Qəhrəmanlı sentyabrın 20-də AXCP sədrinin müavini vəzifəsindən istefa verib.

# Azərbaycan Neft Fondu dünyanın şəffaf suveren fondlarından biri adlandırıldı...

*Prezident İlham Əliyev Beynəlxalq Maliyyə Korporasiyasının vitse-prezidentinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib*



**Prezident İlham Əliyev sentyabrın 26-da Beynəlxalq Maliyyə Korporasiyasının iqtisadiyyat və özəl sektorun inkişafı üzrə vitse-prezidenti Hans Piter Lankesin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev deyib ki, 20 il ərzində bizim Neft Fondumuz Azərbaycanın inkişafı üçün çox vacib vasitə rolunu oynayıb. Fond dünyanın ən şəffaf suveren fondlarından biri kimi BMT tərəfindən mükafata layiq görülüb. Bu Fondun Azərbaycanın inkişafında və sosial problemlərin həllində rolu olduqca böyükdür. Fondun aktivləri hesabına biz qaçqın və məcburi köçkünlər üçün 100-dən artıq qəsəbənin tikintisini maliyyələşdirmişik. Azərbaycan Respublikası Dövlət Neft Fondu insan kapitalına, təhsilə və infrastruktura sərmayə yatırıb. Sizin konfransda iştirakınız da yaxşı göstəricidir. Bildiyimə görə, sizin təsisat vasitəsilə də 250 milyon dollar həcmində sərmayə qoyulub.

Bizim əməkdaşlığımızın çox yaxşı və uğurlu tarixçəsi var. İqtisadiyyatımızın şaxələndirilməsi və dayanıqlı iqtisadi inkişaf üçün zəminin yaradılması planlarını nəzərə alaraq gələcək inkişaf üçün də yaxşı perspektivlər mövcuddur. Neft və qaz sahəsindən asılılığın azaldılması əsas prioritetlərimizdəndir.

Beynəlxalq Maliyyə Korporasiyasının vitse-prezidenti Hans Piter Lankes deyib ki, Azərbaycan Respublikası Dövlət Neft Fondunun özünəməxsus sərmayə strategiyasına malik olması rəmzi məna daşıyır.

Görüşdə Beynəlxalq Maliyyə Korporasiyasının Azərbaycanla əməkdaşlığının perspektivləri, iqtisadiyyatın şaxələndirilməsi, şəhər və kənd yerlərində yeni iş yerlərinin yaradılması, biznes mühitində qazanılmış uğurların daha da möhkəmləndirilməsi, özəl sektora birbaşa xarici investisiyaların cəlb olunması məsələləri müzakirə edilib.

# Daxili işlər naziri Vilayət Eyvazov Lənkəranda vətəndaş qəbulu keçirdi, hərbi hissələrdə oldu

**Daxili İşlər Nazirliyi mətbuat xidmətinin məlumatına görə, sentyabrın 25-də Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov polisin fəaliyyəti və səlahiyyəti ilə bağlı məsələlərlə əlaqədar respublikanın cənub bölgəsindən müraciət etmiş vətəndaşları qəbul etmək üçün Lənkəran şəhərində səfərdə olub.**




Daha sonra general-polkovnik Vilayət Eyvazov DİN Daxili Qoşunlarının Lənkəranda yerləşən hərbi hissəsinə gedərək orada ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların xatirəsinə ucaldılmış abidəni ziyarət edib, hərbi hissənin qərargahındakı "Şərəf kitabı"nı imzalayıb.

V.Eyvazov nazir müavini - Daxili Qoşunların Komandanı, general-leytenant Şahin Məmmədovun müşayiəti ilə hərbi qulluqçuların kazarma-məişət şəraiti, qidalanması, sağlamlıq durumu ilə maraqlanıb, həmçinin silah təminatı, avtomobil və zirehli texnika parkı, ərazidə aparılan abadlıq, quruculuq işləri ilə yaxından tanış olub.

Hərbi hissənin sıra meydanında şəxsi heyət qarşısında çıxış edən Daxili işlər naziri Prezident İlham Əliyevin məqsədyönlü daxili və xarici siyasəti sayəsində ölkəmizin iqtisadi qüdrətinin, müdafiə potensialının artdığını qeyd edərək, dövlət başçısının ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, hərbi qulluqçuların maddi-texniki təminatının, iş və məişət şəraitinin daha da yaxşılaşdırılmasına daim xüsusi diqqət göstərdiyini vurğulayıb.

Cənub bölgəsinə səfəri çərçivəsində Daxili işlər naziri Daxili Qoşunların Cəlilabad şəhərində yerləşən hərbi hissəsində də olub. O, burada da şəxsi heyətin hazırlıq səviyyəsi, xidməti, sosial-məişət şəraiti, maddi-texniki təminatı məsələləri ilə maraqlanıb.

Sonra nazir V.Eyvazovun rəhbərliyi ilə hərbi hissənin qərargahında komandir heyəti ilə əməliyyat müşavirəsi keçirilib. Nazir hərbi qulluqçulara konkret tapşırıq və tövsiyələrini verərək qanunvericiliklə müəyyən edilmiş vəzifə və tapşırıqların öhdəsindən bundan sonra da yüksək səviyyədə və layiqincə gələcəklərinə əminliyini ifadə edib.

# Bakıda parkovkanın vəziyyəti şəxsən Prezidenti də narahat etdi - Vüsal Kərimlinin izahatı Prezidenti razı saldımı...

**Sentyabrın 25-də Bakı Nəqliyyat Agentliyinin "Koroğlu" Nəqliyyat Mübadilə Mərkəzinin açılışı olub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər. Məlumat verilib ki, paytaxtın yollarında yeni səkilər salınıb, görmə əngəlli vətəndaşlar üçün şərait yaradılıb.**

*"Çünki paytaxt üçün 600 yerdə dayanacaq yerinin müəyyənləşməsi ciddi rəqəm sayıla bilər"*

***Azər Allahverənov:** "Bu layihə icra olunsa, əhalinin narazılığı da əhəmiyyətli dərəcədə azalar"*



Hökumət evinin arxasında pilot layihə kimi velosiped yolunun salınması nəzərdə tutulur. Yolun 100 metrlik hissəsi artıq hazırdır. İndi velosiped yolunun örtüyü ilə bağlı təcrübələr aparılır. Bu yolun salınmasında əsasən yerli materiallardan istifadə edilir. Bakı şəhərində, ümumilikdə, 18,5 kilometrlik, ilk mərhələdə isə 7,5 kilometrlik velosiped yolunun salınması nəzərdə tutulur.

Ölkə başçısı şəxsən paytaxtda parklanmanın vəziyyəti ilə maraqlanıb. Bakı Nəqliyyat Agentliyinin rəhbəri Vüsal Kərimli ölkə rəhbərinin diqqətinə çatdırıb ki, şəhərdə parklanma ilə əlaqədar ilkin mərhələdə 600-dək yer müəyyənləşdirilib. İndi bu istiqamətdə infrastruktur işləri görülür. Ümumən paytaxtdakı parklanmanın real vəziyyətini qənaətbəxş saymaq olarmı və bununla bağlı hansı işlərin görülməsi zəruridir?

Nəqliyyat məsələləri üzrə ekspert Azər Allahverənov "Bakı-Xəbər"ə bildirdi ki, parklanma ilə bağlı məsələyə yanaşma birmənalı deyil: "Biz sosial şəbəkələrdə apardığımız müşahidələrdən görürük ki, daha çox avtomobil sahibi olan vətəndaşlarımız parklanma ilə bağlı vəziyyətdən narazılıq ifadə edirlər. BNA bir qədər sərt cərimələr tətbiq etməklə tıxacların qarşısını almağa çalışır. Vətəndaşlar isə alternativ variantın, yəni uyğun yerlərdə dayanacaqların olmadığından şikayətlənirlər. Biz onu da başa düşürük ki, harada gəldi nəqliyyat vasitəsini saxlamaq olmaz. Elə küçələr var ki, orada bir zolaqda belə avtomobillərin saxlanması tıxaclara səbəb olur. Bəlli məsələdir ki, dayanma-durma məsələləri ilə bağlı prosesin nəzarətdə olduğu qənaətinə gəlirik. Çünki cənab Prezidentlə söhbətində də Vüsal Kərimli 600 belə yerin hazırlandığını bildirdi. Hesab etmək olar ki, bu layihə icra olunsa, əhalinin narazılığı da əhəmiyyətli dərəcədə azalar. Çünki paytaxt üçün 600 yerdə dayanacaq yerinin müəyyənləşməsi ciddi rəqəm sayıla bilər. Məsələ birbaşa Prezidentə məruzə olunubsa, özü də ictimaiyyət qarşısında, düşünürəm ki, bu ilin sonuna kimi öz həllini tapar. Yəni 600-ün hamısı olmasa da, böyük hissəsi istifadəyə verilər. Əsas narazılıqlar isə cərimələri yazan əməkdaşlarla bağlı olur. Onlar bəzən sürücülərlə bir qədər sərt tonda danışırlar. Yəni bu problemlər kompleks şəkildə həllini tapmalıdır.

Hələ dayanma üçün yerlərin qiymətləri də tam müəyyənləşməyib. Əsas odur ki, prosesə start verilib və ümidvarıq ki, məntiqi sonluqla yekunlaşacaq. Hətta dayanmadurmanı qadağan edən nişanlarla da bağlı monitorinqin aparılmasına ehtiyac var. Bəzən onlar lazımi yerdə quraşdırılmır, bəzən isə quraşdırılan yerdə təsir gücünə malik olmur. Keçirilən tədbirdən biz gördük ki, ortada bu problemin həllində maraqlı olan güclü siyasi iradə də var".

***Məhəmmədəli QƏRİBLİ***

# Sosial dəstək sahəsində yeni layihə - bağlanmış banklarda batmış sayılan sığortalanmamış əmanətlər qaytarılacaq...

**Azərbaycan Əmanətlərin Sığortalanması Fondu (ADIF) ləğvedicisi olduğu banklarda 10 min ABŞ dollarına (17 min manata) qədər qorunmayan əmanəti olan fiziki şəxslərin pulunu qaytaracaq.**



***Vüqar Bayramov:** "İlkin qiymətləndirmələrə görə, 52 min əmanətçinin qorunmayan əmanəti geri qaytarılacaq"*

Qeyd edək ki, Prezident İlham Əliyev bir müddət əvvəl problemli kreditlərlə əlaqəli məsələni həll etdi. Ancaq bağlanmış banklarda sığortalanmamış əmanətlərlə bağlı məsələ problem olaraq qalırdı. Bu problemin həll olunması üçün aidiyyəti şəxslər dəfələrlə Prezidentə müraciət ediblər.

Məlumdur ki, ölkə başçısı İlham Əliyev sosialyönümlü islahatların davamı olaraq əhalinin bank sektoruna inamını bərpa etmək üçün problemli kreditlər məsələsini həll etdi. Sosial islahatların davamı olaraq artıq sığortalanmayan əmanətlərin geri qaytarılmasına da çarə tapıldı.

Məlumat üçün bildirək ki, banklar müflis olmazdan əvvəl sığortalanan əmanətlər 30 min manat idi. Həmin dövrdə dolların kursu 0.78 qəpik olub və dolların məzənnəsi manatdan aşağı olduğu üçün, insanlar rahatlıqla banklara pul qoya bilirdilər. Devalvasiyadan sonra manatın kursu 1.60, 1.70-ə qalxan kimi sığortalanan əmanətlər qaytarılanda, 0.78 ilə qoyuldu 1.60-1.65 ilə hesablandı və insanların sığortalanmış əmanətlərinin yarı nisbəti, yəni 10 min dollara qədər olan əmanəti sığortadan kənar qaldı.

İqtisadçı-ekspert Vüqar Bayramov bizimlə söhbətində bildirdi ki, gələn aydan etibarən müflis elan olunan banklarda 10 min dollar və ya 17 min manatdan çox olmayan sığortalanmayan əmanətləri olan vətəndaşlar pullarını geri ala biləcəklər: "Yəni müflis olan bankda vətəndaşların qorunmayan əmanəti olubsa və onun məbləği 10 min dollardan çox deyilsə, o zaman həmin vəsait qaytarılacaq".

Onun sözlərinə görə, Əmanətlərin Sığortalanması Fondu Bakı Apelyasiya Məhkəməsinə müraciət edib və ödənişə icazə verilməsini istəyib: "Qanunvericiliyə əsasən, ödəniş məsələsində 7-ci növbədə olan qorunmayan əmanət sahiblərinin 1-ci növbəyə keçirilməsinə icazə verilib. İndiyədək qorunan əmanətlər ödənilirdi. İlkin qiymətləndirmələrə görə, 52 min əmanətçinin qorunmayan əmanəti geri qaytarılacaq. İndiyədək müflisləşən banklarda qorunan əmanətlərin qaytarılması həyata keçirilirdi, lakin sığortalanmayan depozitlər ödənilmirdi. Halbuki, bank həmin vəsaitdən istifadə edərək gəlir əldə etdi. Amma vətəndaş pulunu geri ala bilmirdi.

Yeni razılaşmaya əsasən, müflis elan olunan banklarda ümumi məbləği 10 min dollardan çox olmayan qorunmayan depozitlər Əmanətlərin Sığortalanması Fondu tərəfindən geri qaytarılacaq. Bu o deməkdir ki, sizin müflis elan olunan banklarda 10 min dollardan az qorunmayan əmanətiniz olubsa, o zaman gələn aydan onu əldə etmək imkanınız olacaq".

***Günel CƏLİLOVA***




# Elmar Məmmədyarov BMT Təhlükəsizlik Şurasının Nazirlər Debatında regional beynəlxalq təşkilatları prinsipial şəkildə vurdu

**Elmar Məmmədyarov həmin toplantıda deyib:**

"Cənab Prezident,

Əziz həmkarlar,

İlk öncə, beynəlxalq sülh və təhlükəsizliyin qorunması üzrə BMT ilə regional və sub-regional təşkilatlar arasındakı əməkdaşlıqla bağlı bugünkü vacib müzakirələrin təşkil edilməsi təşəbbüsünə görə Rusiya Federasiyasına təşəkkürümü bildirmək istərdim.

Terrorizm və bununla əlaqəli cinayətkar fəaliyyətlər, beynəlxalq sülhə və təhlükəsizliyə, insan hüquqları və əsas azadlıqlarından sərbəst istifadə edilməsinə, o cümlədən bütün üzv dövlətlərin siyasi müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə ciddi təhlükə olmaqda davam edir. Bu cür fəaliyyətlər sosial və iqtisadi inkişafa da mane olur.

Terrorizm ən ağır cinayətlərdən biridir və buna görə də pislənilməli və bunu törədənlər mühakimə olunmalıdır. Terrorçuların müdafiə edilməsi və ideallaşdırılması hallarına yol verilməməlidir.

Azərbaycanın həssas coğrafi mövqeyi və bölgədəki həll olunmamış münaqişələrin davam etməsi, üstəlik hamiya məlum olan etnik təmizləmə və ölkəmin suveren ərazilərinin işğalı, terrorçuluq da daxil olmaqla transsərhəd təhlükələrin səviyyəsini yüksəldir. 1980-ci illərin sonundan etibarən, əsassız və qanunsuz ərazi iddialarını həyata keçirmək üçün bir vasitə və müharibə üsulu olaraq, Azərbaycana qarşı dəfələrlə, minlərlə vətəndaşın ölümünə səbəb olan xaricdən yönləndirilmiş terror hücumları həyata keçirilmişdir.

Terrorizmin yayılmasına səbəb olan bütün amillərin aradan qaldırılmasının vacibliyini dərk etməklə yanaşı, dünyanın müxtəlif yerlərində münaqişələrin həlli istiqamətindəki səyləri gücləndirmək vacibdir. Silahlı münaqişə bölgələri, xüsusən də xarici hərbi işğal altında olan ərazilər, terrorçulara və mütəşəkkil cinayətkar qrup və şəbəkələrə təbii sərvətlərin istismarı, narkotik vasitələrin və mədəni sərvətlərin qanunsuz dövriyyəsi, çirkli pulların yuyulması və digər əlaqəli cinayətlərdən yararlanmaq üçün əlverişli şərait yaradır.

Cənab Prezident,

Əməkdaşlığın və əlaqələndirmənin inkişaf etdirilməsi və üzv dövlətlərin beynəlxalq terrorizm və mütəşəkkil cinayətkarlıqla mübarizədə imkanlarının gücləndirilməsi üçün Birləşmiş Millətlər Təşkilatı və digər beynəlxalq, regional və sub-regional təşkilatlar tərəfindən əhəmiyyətli səylər göstərildiyini təqdir edirik.

Müstəqil Dövlətlər Birliyinin (MDB) üzvü kimi Azərbaycan Respublikası, dövlətlərin suveren bərabərliyi və ərazi bütövlüyü prinsiplərinə uyğun olaraq bu çoxtərəfli platforma çərçivəsində əməkdaşlığın davam etdirilməsində və ikitərəfli əsasda MDB üzv dövlətləri ilə qarşılıqlı faydalı iqtisadi, siyasi, hüquqi və humanitar əlaqələrin inkişafında maraqlıdır.

Dialoq tərəfdaşı kimi Azərbaycan, dövlətlərin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə hörmət kimi dəyərlərə/normalara əsaslanan Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) məqsəd və prinsiplərini bölüşür və BMT ilə ŞƏT arasında davamlı əməkdaşlığı tam dəstəklədiyini bir daha izhar edir.

Azərbaycan, regional təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsi, terrorizm, ekstremizm və separatizm, habelə narkotik ticarəti və əlaqəli cinayətkarlığa qarşı mübarizə aparılması, o cümlədən qarşılıqlı maraq və narahatlıq doğuran digər sahələrdə regional əməkdaşlığın təşviq edilməsi üçün ŞƏT ilə tərəfdaşlıq münasibətlərini inkişaf etdirməkdən məmnundur.

Birləşmiş Millətlər Təşkilatı və regional təşkilatlar arasında əməkdaşlıq, Birləşmiş Millətlər Təşkilatının məqsəd və prinsiplərinin təşviq edilməsi baxımından zəruridir. Bir sıra hallarda aydındır ki, regional və sub-regional təşkilatlar bu xüsusda əvəzedilməz mexanizmlərdir.

Bununla yanaşı, ciddi problemlər hələ də mövcuddur. Regional təşkilatlar öz bölgələrinin qarşılaşdıqları təhdid və çətinlikləri dərk etmək bacarığına malik olsalar da, heç də hamısı, onlara üzv dövlətlərin qanunla müəyyən edilmiş müvafiq öhdəliklərinə əməl etmələrini təmin etmək qabiliyyəti, siyasi iradəsi və institusional potensialına sahib deyillər.

Hər şeydən əvvəl, regional təşkilatlar beynəlxalq hüququ kobud şəkildə pozan və cəzasızlıq mədəniyyətini təbliğ edənlər tərəfindən sui-istifadə olunmaları hallarına yol verməməlidirlər. Bütün üzv dövlətlərin beynəlxalq öhdəliklərinə əməl etmələri və BMT Nizamnaməsinin tələb etdiyi kimi, BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş müvafiq qətnamələri yerinə yetirmələri çox vacibdir. Onlar həmçinin terror və əlaqəli cinayətkar fəaliyyətlərin, xüsusilə də hər hansı bir bəhanə və ya sipər altında, bilavasitə və ya dolayı yolla dəstəklənməsi və ya maliyyələşdirilməsi üçün öz ərazilərinin istifadə edilməmədiyindən əmin olmalıdırlar.

**Təşəkkür edirəm".**

**Məlum olduğu kimi, Azərbaycan Müdafiə Nazirliyi sentyabrın 22-də cəbhəboyu zonada yerləşən hərbi hissədə əsgər Abdulrəhmanov Ramin Şövkət oğlunun yolu azaraq düşmənlə üzbəüz mövqelər arasındakı ərazidə ermənilər tərəfindən vurulması ilə bağlı məlumat yaymışdı.**

# Ermənistan müdafiə nazirinin öldürülmüş Azərbaycan əsgəri barədə ziddiyyətli xəbərləri...

## *Daşdəmir Əliyev: "Bilir ki, ondan "diversiya qrupu"na aid videogörüntülər tələb edəcəklər"*




Ermənistan tərəfi isə yaydığı məlumatda Azərbaycan Ordusu tərəfindən həyata keçirilən diversiyanın qarşısının alındığını bildirmişdi.

Sentyabrın 23-də Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) vasitəsilə əsgərimizin nəşi təmas xəttindən çıxarılıb və dəfn olunub.

Qeyd edək ki, əsgərin nəşi neytral ərazidən götürüləndən sonra Ermənistanın müdafiə naziri David Tonoyan əvvəlki bəyanatına düzəliş etməli olub. O, rəhbərlik etdiyi qurumun Azərbaycan Ordusunun diversiyasının qarşısının alınması ilə bağlı bəyanatını şübhə altına alıb. Tonoyan jurnalistlərə verdiyi açıqlamasında neytral ərazidə şəhid olan Azərbaycan əsgərinin azmaq ehtimalını istisna etməyib.

Erməni nazir hadisəyə dəqiq qiymətin yalnız aparılan araşdırmalardan sonra veriləcəyini deyib.

Göründüyü kimi, Tonoyan bir hadisə ilə bağlı iki fərqli və kökündən ziddiyyətli olan mövqelər ortaya qoyub. Onun bu çaşqınlığı nə ilə bağlıdır?

Ehtiyatda olan polkovnik-leytenant, hərbi ekspert Daşdəmir Əliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bunun özü Ermənistan ordusundakı vəziyyətin bərbad olduğunu sübut edir : "İşğalçı ölkənin müdafiə naziri D.Tonoyan ilk açıqlamasında deyirdi ki, Azərbaycan tərəfinin diversiya qrupunun sayının 10-dan çox olması və onların cəhdləri videokameralarla qeydə alınıb. Sonra isə D.Tonoyan jurnalistlərə müsahibəsində Azərbaycan tərəfinin niyə belə "təxribat" cəhdinə əl atdığını və hadisənin vaxtını dəqiq deyə bilməyəcəyini, onların azmış ola biləcəklərini qeyd etdi. Deməli, bu qənaətə gəlmək olar ki, Tonoyan əvvəlki gündən faktlara söykənərək danışmayıb. O yalnız yuxarıda qeyd olunan diqtəyə əsasən mövqe bildirib. Çünki həmin təxribat çox "diversiya qrupu"na aid videogörüntülər tələb edəcəklər. Bu çıxılmaz durumdan yaxa qurtarmaq üçün onlar realda nə var, onu deməyə məcbur olublar.

*"Bu çıxılmaz durumdan yaxa qurtarmaq üçün onlar realda nə var, onu deməyə məcbur olublar"*

həssas dönəmə təsadüf edirdi. XİN rəhbərlərinin görüşü ərəfəsində belə təxribata əl atmaq birbaşa danışıqlar prosesini pozmaq anlamına gəlir. Ermənistan baş vermiş hadisəyə həm beynəlxalq qurumların, həm də Azərbaycanın sərt reaksiyasını görəndən sonra mövqeyini dəyişməyə məcbur olub. Bilir ki, ondan lar və faktiki olaraq, Azərbaycanın haqlı olduğunu deyiblər. Hərbi nöqteyi-nəzərdən də onların dedikləri cəfəngiyyata oxşayır. Çünki işğalçı ölkə qeyd edirdi ki, guya həmin qrup saat 17 radələrində diversiya törətməyə cəhd edib. Elə vaxtın elan olunmasında məlumatın yalan olduğu üzə çıxır. Hərbçilər gözəl bilirlər ki, adətən, kəşfiyyat hərəkətləri gecə, səhərin açılmasına az qalmış vaxtda, əlverişsiz hava şəraitlərində həyata keçirilir. Buradan bir daha aydın olur ki, Ermənistanın həm siyasi, həm də hərbi rəhbərliyi müharibə mövzusunda reallıqlardan daha çox, daxili situasiyaya uyğun açıqlamalar verirlər. Tonoyanın özünün istefası ciddi şəkildə tələb edilir. Əslində, heç mən ora neytral ərazi deyilməsinin də tərəfdarı deyiləm. Çünki əsgərimiz işğal olunmuş Azərbaycan torpağında öldürülüb. Hansı səbəbdən öldürüldüyünə baxmayaraq, bunun bilavasitə məsuliyyəti ermənilərin üzərindədir. Ümid edirəm ki, ordumuz tezliklə günahsız yerə öldürülən hərbçimizin qisasını yerdə qoymayacaq".

***Məhəmmədəli QƏRİBLİ***

# Paşinyana qarşı əyalət qiyamlarının anonsu fermerlərdən gəldi

**Zamin Axundov:** *"Əyalətlərin də Paşinyanın üzərinə yeriməsi onun hakimiyyəti üçün yaxşı nəsə vəd etmir"*

**Ermənistanda Nikol Paşinyan hakimiyyətə gəldikdən sonra da davam edən təhdidlərə qarşı radikal millətçi hərəkat başlayır. Bu barədə fermer Tiqran Eqoyan məlumat verib. Onun sözlərinə görə, hərəkat bölgələrdən başlayacaq. Hərəkatın əsas xüsusiyyəti isə iştirakçılardan heç birinin dövlət vəzifəsində təmsil olunmamasıdır:**



"İnqilabdan sonra təhlükəsizliyimizi təhdid edən vəziyyət yaranıb. Su elektrik stansiyalarının qanunsuz istismarı davam edir, sudan cinayətkar xarakterli istifadə var. Bu stansiyalar keşiş və generalların nəzarəti altındadır, yeniləri də tikilir. Kəndlər boşalır, insanlar kütləvi emiqrasiya edir, xəstəliklər yayılır".

Eqoyan bildirib ki, Nikol Paşinyanın da hakimiyyəti dövründə müqəddəslərə, əsgər və zabitlərə hücumlar qəbuledilməzdir: "Biz hərbçilərə yüksək dəyərlə bağlı Paşinyanın dediyinin tam əksini görürük".

Qeyd edək ki, Nikol Paşinyan hakimiyyətə gələndən sonra meydanlarda əhaliyə verdiyi vədlərin heç biri yerinə yetirilməyib. Əksinə, ölkədəki vəziyyət daha da acınacaqlı hal alıb. Demək olar ki, bütün təbəqələr ayrı-ayrılıqda Paşinyanın siyasətinə ən sərt formada etiraz edirlər. Göründüyü kimi, artıq fermerlər də ona ultimatum verirlər. Hətta ona qarşı əyalətlərdən bir hərəkat başlayacaqlarına söz verirlər. Əyalət qiyamlarının baş qaldırması nə ilə nəticələnə bilər?

Politoloq Zamin Axundov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistandakı vəziyyətin acınacaqlı olması hamıya məlumdur: "Biz həmin ölkədə, demək olar ki, bütün təbəqələrin etiraz etdiklərinin şahidi olmuşuq. Ən maraqlısı isə budur ki, həmin etirazların çoxu heç siyasi qüvvələr tərəfindən deyil, əhalinin müxtəlif zümrəsi tərəfindən edilir. Bu, ölkədəki iqtisadi vəziyyətin acınacaqlı olduğuna bir sübutdur. Fermerin müraciətində qeyd edilir ki, onlar Paşinyanın adamlarının əlindən əkinlərini suvara bilmirlər. Deməli, Paşinyan heç də özünü qələmə verdiyi kimi demokrat deyil. Hətta əyalətlərdə belə, o özünə korrupsiya mexanizmi qurub.

Ermənistanda daxili ictimai-siyasi durum 8 may 2018-ci il "məxməri inqilab"ından sonra bunca gərgin olmamışdı. Məhz buna görədir ki, Nikol Paşinyanın reytinqi davamlı şəkildə enməkdədir.

Xatırladaq ki, təxminən iki ay öncə ABŞ-ın Beynəlxalq Respublikaçılar İnstitutunun (İRİ) ölkədə keçirdiyi rəy sorğusu aşkar etmişdi ki, Paşinyanın reytinqi inqilabdan sonra ilk dəfə Prezident Armen Sarkisyanınkından geri qalır - müvafiq olaraq 56 və 61%. Ümumiyyətlə, bu ilin yanvarı ilə müqayisədə Paşinyan 31%-lik reytinq itkisinə məruz qalmışdı. İndi bu rəqəm yəqin ki, daha da böyüyüb. Səbəb, əlbəttə ki, ilk növbədə, inqilab dalğasında hakimiyyətə gələn Nikol Paşinyanın əhalinin ondan gözləntilərini doğrulda bilməməsi ilə bağlıdır. Düşmən ölkədəki vəziyyətə Qərb KİV-i də getdikcə daha çox diqqət yetirir. Ümumən bu qənaət hasil olur ki, bu alovlu inqilabçı natiqin tərəfdarlarının İrəvanda hakimiyyətə gəlişindən ilyarım ötür. Amma Ermənistanın kasıb və bədbəxt əhalisi getdikcə daha aydın şəkildə dərk etməkdədir ki, onu, sadəcə, barmağa dolayıblar. Çünki Paşinyanın həmin vaxt küçə və meydanlarda ucadan bəyan etdiklərinin, demək olar, heç biri yerinə yetirilməyib".

Politoloqun sözlərinə görə, əyalətlərdə yalnız fermerlər baş qaldırmır: "Məsələn, "Amulsar" dağ mədəni ətrafında ehtiraslar getdikcə qızışmaqdadır. Yerli əhali qəti şəkildə burada qızıl istehsalının əleyhinədir. Narazılıq o həddə çatıb ki, Cermuk kəndinin sakinləri vətəndaş itaətsizliyi aksiyaları keçirirlər. Hətta "Çiçəklənən Ermənistan" Partiyasının başçısı Qaqik Tsarukyan da onlara qoşulmaq fikrində olduğunu bildirib. Bir sözlə, əyalətlərin də Paşinyanın üzərinə yeriməsi onun hakimiyyəti üçün yaxşı nəsə vəd etmir".

***Məhəmmədəli QƏRİBLİ***

# Həmsədrlərin son birgə bəyanatını sanballı siyasi sənəd saymaq olarmı...

**Fikrət Sadıqov:** *"Bunu tutarlı sənəd hesab etmək olmaz"*

**Qarabağ danışıqlarının növbəti raundu ABŞ-ın Nyu-York şəhərində gerçəkləşib. Lakin, gözlənildiyi kimi, bu görüş heç nə ilə yadda qalmayıb və sadəcə, deklorativ xarakter daşıyıb. Bu arada ATƏT-in Minsk Qrupunun həmsədrləri sentyabrın 23-də Nyu-Yorkda Azərbaycan və Ermənistan XİN rəhbərləri ilə görüşün yekunlarına dair bəyanat yayıblar.**




Sənəddə deyilir ki, həmsədrlər BMT Baş Assambleyası çərçivəsində hər iki ölkənin xarici işlər naziri ilə ayrı-ayrılıqda və birgə görüşlər keçiriblər. Görüşlərdə ATƏT-in hazırkı sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik də iştirak edib.

Həmsədrlər nazirlərə iyun ayında Vaşinqtonda keçirilən birgə görüşdən, o cümlədən, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı humanitar və təhlükəsizlik aspektləri üzrə Paris və Cenevrədəki son müşavirələrdən sonra fəaliyyətləri barədə məlumat veriblər. Onlar zorakılığın minimuma endirilməsi üzrə tərəflərin səylərinin müsbət nəticə verdiyini, mövcud birbaşa kanallardan istifadə olunduğunu qeyd ediblər, son faciəli hadisələrdən təəssüfləndiklərini bildiriblər.

Həmsədrlər və nazirlər gərginliyin azaldılması, sülh və əsaslı danışıqlar üçün şərait yaradan əlavə tədbirlərin müzakirəsini davam etdiblər. Həmsədrlər 9 mart tarixli bəyanatlarına əsaslanaraq tərəfləri danışıqların yekunlarına mənfi təsir göstərən ritorikadan istifadəni minimuma endirməyə çağırıblar.

Göründüyü kimi, bu dəfə də ATƏT-in Minsk Qrupu sözügedən məsələ ilə bağlı ənənəvi bəyanat verdi. Bəyanatda, əvvəlki kimi, ümumi sözlər işlədildi. Hansı ki, Ermənistanın danışıqlara zidd bir sıra addımları ortada idi. Gözlənilirdi ki, qurum bununla bağlı narahatlığını ortaya qoyacaq. Ancaq bunların heç biri baş vermədi. Yalnız ümumi ifadələr bəyanatda yer aldı.

Maraqlıdır, bəs ekspertlər bunu necə dəyərləndirirlər? Həmsədrlərin son birgə bəyanatını sanballı siyasi sənəd saymaq olarmı?

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, həmsədrlərin son bəyanatı əvvəlkilərdən elə də fərqlənmədi: "O baxımdan bunu tutarlı sənəd hesab etmək olmaz. Həmsədrlərin ümumən fəaliyyətindən Azərbaycan narazıdır. Bunu dəfələrlə müxtəlif formalarda bildirib. Xüsusən də onların seyrçi mövqe tutması və Azərbaycanla Ermənistana bərabər yanaşmaları qəbuledilməzdir. Bu cür yanaşma, əslində, münaqişəyə, baş verən hadisəyə və regiondakı təhlükəsizliyə ziddir. Çünki Azərbaycanın torpaqları işğal altındadır və bu, həmsədrlər tərəfindən bəyan edilməlidir. Ermənistana təzyiq edilməlidir. Danışıqlarda əsas məsuliyyət Ermənistanın üzərinə qoyulmalıdır. Bunların heç bir elementini biz həmsədrlərin bəyanatında görmürük. Nə əvvəlki, nə də indiki bəyanatda. Bəyanatda konkret məqsəd daşımayan ifadələr heç bir əhəmiyyət kəsb etmir.

*"Hər dəfə bəyanatlarda qeyri-konkret ümumi ifadələrin işlədilməsi münaqişənin həllinə gətirib çıxara bilməz"*

Bu o deməkdir ki, həmsədrlər Ermənistanın "başını sığallamaqla" məşğuldurlar. Məgər həmsədrlər görmürlər ki, Azərbaycanın xeyrinə BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi var? Bunu çox yaxşı bilirlər, sadəcə, ortaya konkret mövqe qoymaq istəmirlər. Bax, budur problem. Paşinyan avqust ayında Xankəndidə danışıqlara tamamilə zidd ifadələr işlətdi. Ancaq həmsədrlər bununla bağlı heç bir mövqe ortaya qoymadılar. Hər dəfə bəyanatlarda qeyri-konkret ümumi ifadələrin işlədilməsi münaqişənin həllinə gətirib çıxara bilməz. Ona görə də həmsədrlərin son bəyanatı da formal və deklorativ xarakterlidir".

***Vidadi ORDAHALLI***

**Ermənistanda general-polkovnik Ayk Arutyunyan özünü öldürüb. Erməni KİV-nin məlumatına görə, Kotayk vilayətinin Bcni kəndində yaşayan generalın sentyabrın 23-ü axşam evində başına tapançadan atəş açdığı bildirilir.**

# Ermənistanın ən qalmaqallı cinayət hadisəsinin şahidləri bir-bir aradan götürülür

***Elşən Mustafayev:** "Paşinyana xatırladılır ki, mövqeyində israrlı olarsa, müxtəlif "sürprizlərlə" üzləşə bilər"*

Ayk Arutyunyan 1999-2003-cü illərdə daxili işlər naziri, 2003-2008-ci illərdə Ermənistan Polisinin rəisi olub, 2010-2014-cü illərdə Ədliyyə Nazirliyinin Cinayət-İslah İdarəsinə başçılıq edib. Ayk Arutyunyan 2008-ci ilin mart qırğını işində əsas şahidlərdən biri idi. Qeyd edək ki, bu, Köçəryanın cinayət işi üzrə əsas şahidlərdən sayılan şəxsin ilk ölümü deyil. Arutunyan bu qəbildən olan 4-cü məmur sayılır. Uzun illər əvvəl Köçəryanın dönəmində yüksək post tutmuş Qriqoriy Sarkisov infarktdan öldü. Mart hadisələri zamanı proseslərə rəhbərlik etmiş digər iki şəxs - Qorik Akopyan və Armen Eriçyan da bir müddət əvvəl müəmmalı şəkildə dünyasını dəyişib. Bu iş üzrə əsas şahidlərdən sayılan Mikayıl Arutunyan isə Rusiya ərazisində gizlənir. Bir müddət əvvəl isə Ermənistanın təhlükəsizlik naziri bildirmişdi ki, 1 mart hadisələri ilə bağlı mühüm sənədlər nazirlikdən yoxa çıxıb. Görünən budur ki, hansısa qüvvə 1 mart hadisələrinin bütün izlərini silir və canlı şahidlərini aradan götürür. Bunda kim maraqlı ola bilər?

Ekspert Elşən Mustafayev qəzetimizə bildirdi ki, Ermənistan siyasi həyatında belə qaranlıq hadisələr çox olub: "Bu bir daha sübut edir ki, Ermənistanda hakimiyyətdə daha çox hərbi-kriminal qruplaşmalar olub. Onların izləri itirməsi, davranışları bunu deməyə əsas verir. Ermənistan parlamenti 1999-cu ildə güllələnən edildi. Həmin hadisəni törədənlər də bir-bir aradan götürüldü. Belə məlumat yayıldı ki, guya adamlar özlərini türmədə asıblar. İndi də bu hadisə. 1 martda İrəvanda qan tökülüb. Hakimiyyət bilirdi ki, nə vaxtsa buna görə cavab verilməlidir. Buna görə də bütün izləri təmizləməyə çalışıb. Adları çəkilən şəxslərin çoxu köhnə hakimiyyətin dönəmində öldürülüb. Yəni mahiyyət etibarilə Sarkisyan hakimiyyəti də elə Köçəryanla eyni idi. Yəni onların bir-birinin sifarişini icra etməsi mümkündür. Dövlət qurumlarından həmin hadisələrə aid sənədlərin oğurlanması da köhnə hakimiyyətin zamanında baş tuta bilərdi. İş üzrə əsas fiqurantlardan olan Arutunyanın özünü öldürməsində də maraqlı məqam var. Bildirilir ki, o, ucqar kənddə özünü güllələyib. Böyük ehtimalla onu da aradan götürüblər. Bu qətl, təbii ki, Paşinyana lazım deyil. Əksinə, Paşinyanın işini çətinə salmış olur. Bütün bunlardan o nəticəni çıxara bilərik ki, həmişə olduğu kimi, hazırda da Ermənistanda dövlət, qanunlar formal xarakter daşıyır.

Əsasən mafiya qanunlarının hakim olduğu yerlərdə belə hadisələr baş verə bilər. Bu həm də Paşinyana verilən bir mesajdır. Demək istəyirlər ki, Köçəryanı həbsdən buraxmaq lazımdır. Paşinyan belə mesajı siyasi cəhətdən də alıb. Putinin türmədə olan sabiq prezidenti iki dəfə təbrik etməsi də bu qəbildən olan ismarıc sayıla bilər. Paşinyana xatırladılır ki, mövqeyində israrlı olarsa, müxtəlif "sürprizlərlə" üzləşə bilər".



***Məhəmmədəli QƏRİBLİ***

**Nyu-Yorka səfəri çərçivəsində Ermənistanın Baş naziri Nikol Paşinyan BMT Baş katibi Antoniu Quterrişlə görüşüb. Tərəflər bir sıra məsələləri müzakirə ediblər. BMT Baş katibi Ermənistanın Baş nazirinin Baş Assambleyanın 74-cü sessiyasında iştirakını alqışlayıb. Quterriş BMT-nin Ermənistanda baş verən prosesləri izlədiyini, ölkədəki demokratik inkişafı alqışladığını və erməni xalqına irəliləyişdə kömək etməyə hazır olduğunu qeyd edib.**




# BMT Baş katibi Paşinyana nələr deməli idi? - BMT-nin qeyri-ciddi quruma çevrildiyinə daha bir sübut...

***Məhəmməd Əsədullazadə:** "BMT Baş katibi sözügedən qətnamələrin yerinə yetirilməməsini görməzdən gələrək işğalçı ölkənin rəhbəri ilə görüşür"*

Öz növbəsində, Paşinyan da Ermənistanda gedən prosesləri Quterrişə tərifləyib. Onun sözlərinə görə, Ermənistanın yeni hökuməti guya insan hüquqlarının qorunmasına, qanunun aliliyinin təmin olunmasına, məhkəmə sisteminin islahatına, korrupsiyaya qarşı mübarizəyə, bərabər imkanların təmin olunmasına yönəlmiş geniş islahatlar paketini həyata keçirmək niyyətindədir. Bu məsələdə Ermənistan beynəlxalq tərəfdaşların dəstəyinə böyük əhəmiyyət verir.

Bir sözlə, tərəflər bir sıra məsələlər, o cümlədən, Dağlıq Qarabağ problemi ilə bağlı fikir mübadiləsi aparıblar. Ancaq çox qəribədir ki, Paşinyanla görüşü zamanı Quterriş Ermənistanın BMT-nin Təhlükəsizlik Şurasının Dağlıq Qarabağla bağlı qəbul etdiyi 4 qətnaməni nəyə görə yerinə yetirmədiyi barədə Baş nazirə sual verməyib. Hansı ki, bunun özü BMT kimi bir quruma ən böyük hörmətsizlikdir. Yaxşı olardı ki, BMT Baş katibi bu məsələ ətrafında Paşinyanla fikir mübadiləsi aparsın. Bunun baş verməməsi bir daha onu göstərir ki, BMT-nin qeyri-ciddi quruma çevrilməsi danılmaz reallıqdır. Zatən, bu təşkilatın öz qərarlarına sahib çıxmaması qurumu nüfuzdan salıb.

*"...belə bir təşkilatın mövcudluğu, əslində, yox kimidir"*

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadə buna bir neçə rakursdan yanaşdı: "Əvvəla Ermənistan Baş nazirnin BMT Baş katibi ilə görüşü bu təşkilatın adına yaraşmır. Bu, BMT üçün utancverici bir haldır. Çünki bir ölkə BMT-nin dörd qətnaməsini uzun illərdir yerinə yetirmirsə, demək, bu ölkəyə qarşı sanksiyalar tətbiq edilməlidir. Ancaq bu baş vermir. Bununla belə, BMT Baş katibi sözügedən qətnamələrin yerinə yetirilməməsini görməzdən gələrək işğalçı ölkənin rəhbəri ilə görüşür. Göründüyü kimi, artıq diplomatiyada xoş məram və zəiflik olmur. Azərbaycan sabah hərbi əməliyyatlara başlasa, Ermənistan çəkəcək. Bunun da məsuliyyəti BMT-nin üzərinə düşür. Bu cür mötəbər bir qurum adi kiçik bir ölkəyə qarşı tədbir və ölçü götürmürsə, belə bir təşkilatın mövcudluğu, əslində, yox kimidir. Hesab edirəm ki, Azərbaycan bir daha BMT Baş katibinə məktub göndərməli və ondan Ermənistanın niyə qətnamələrə əməl etməməsini soruşmalıdır. Ermənistana beynəlxalq təzyiqlər olmasa, işğal faktorlarına beynəlxalq birlik göz yumsa, analoji hal digər regionlarda da baş verəcək. Ona görə də işğalçı ölkə başçılarının BMT-yə buraxılmaması lazımdır".

***Vidadi ORDAHALLI***

**Məlum olduğu kimi, Ermənistanın Baş naziri Nikol Paşinyan BMT Baş Assambleyasının 74-cü sessiyası çərçivəsində ABŞ Prezidenti Donald Trampla ikitərəfli görüş keçirə bilmədi. Artıq ikinci ildir Ermənistanın Baş naziri ilə ABŞ Prezidenti arasında görüş təşkil etmək mümkün olmur.**



# ABŞ səfiri Tramp-Paşinyan görüşünün vaxtı barədə suala ermənilərin ümidini kəsən cavab verdi

***Arzuxan Əlizadə:** "Trampın Paşinyanla görüşməməsi Ermənistan hakimiyyətinə böyük zərbə oldu"*

Baxmayaraq ki, Ermənistan Xarici İşlər Nazirliyi dəfələrlə belə bir görüşün təşkili üçün səy göstərib.

Bu arada ABŞ-ın Ermənistandakı səfiri Linni Treysi ermənilərin bununla bağlı ümidini növbəti dəfə yerə vurub. Sentyabrın 25-də jurnalistlər ona bu barədə sual veriblər. Səfir isə deyib ki, zərurət yarandıqda belə görüşlər keçirilir. Bu o anlama gəlir ki, Tramp Paşinyanla görüşü məqsədəuyğun saymır.

Bununla belə, ABŞ-ın Ermənistandakı səfiri ermənilərin başını qatmaq üçün məsələni diplomatikcəsinə digər tərəfə yönəldib. Onun sözlərinə görə, müxtəlif səviyyələrdə görüşlər olur, səmərəli əməkdaşlıq həyata keçirilir və onun dəyəri belə yüksək səviyyəli görüşlərlə deyil, ikitərəfli münasibətlərin məzmunu ilə müəyyən edilir. Ermənilərə təsəlli olsun deyə qeyd edib ki, Ermənistan müdafiə naziri ABŞ-da səfərdə olub. Paşinyan Kaliforniya qubernatoru və vitse-qubernatoru ilə səmərəli görüşlər keçirib, Kaliforniya çox böyük ştatdır və s. Bir sözlə, Linni Treysi Tramp-Paşinyan görüşünün bundan sonra ola biləcəyi barədə heç bir ümidverici fikir səsləndirməyərək erməniləri məyus edib.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən AMİP-in baş katibi Arzuxan Əlizadənin sözlərinə görə, Trampın Paşinyanla görüşməməsi Ermənistan hakimiyyətinə böyük zərbə oldu: "Paşinyanın Trampla görüşmək istəyinin reallaşmayacağı gözlənilən idi. Baxmayaraq ki, Ermənistan mediası görüşün baş tutacağı ilə bağlı rəy formalaşdırmağa çalışırdı. O da məlumdur ki, ötən il də Paşinyan Trampla görüşməyə çalışdı, hətta bu məqsədlə əvvəlcə müşavirini Vaşinqtona yolladı. Daha sonra ermənipərəst konqresmenlərin Ağ Evə məktub göndərilməsinə nail oldu. Ancaq bütün bu cəhdlər

*"O apardığı populist siyasəti ilə ABŞ-da ona bəslənən ümidləri puça çıxardı"*

boşa çıxdı. Tramp Paşinyanla görüşmədi. Bu dəfə də Ağ Ev sahibi analoji mövqedən çıxış edərək Paşinyanla ikitərəfli görüşdən imtina etdi. Trampın Paşinyanla görüşü zəruri hesab etməməsi təsadüfi deyil. Məsələ ondadır ki, Paşinyan apardığı populist siyasəti ilə ABŞ-da ona bəslənən ümidləri puça çıxardı. Bir sıra məsələlərdə Paşinyan hakimiyyəti ABŞ-ın maraqlarına qarşı siyasət sergilədi. Suriyada Vaşinqtonun iradəsinin əksinə olaraq, Rusiya ilə birgə hərəkət etdi, əvvəlki hakimiyyətlər kimi, Ermənistandakı indiki iqtidar da vassal siyasəti yeridir. İranla yaxınlaşma mövqeyi sergiləyir. Bütün bunlar, əlbəttə ki, Vaşinqtonda xoş qarşılanmır. Bu, məsələnin görünən tərəfidir. Bunun görünməyən tərəfləri də var. Ona görə də bu gedişlə Paşinyan-Tramp görüşü hələ bundan sonra da baş tutmaya bilər".

**Vidadi ORDAHALLI**

**İranla Ermənistan arasında üçüncü elektrik ötürücüsü xəttinin tikintisi təxirə salınıb. Bu barədə Ermənistanın Ərazi İdarəetmə və İnfrastruktur Nazirliyindən erməni mətbuatının sorğusuna cavab olaraq bildirilib. Qeyd olunub ki, tikinti işləri 2020-ci ilin sonunadək dayandırılıb.**

*"Paşinyanın komandası hesab edir ki, İranda mövcud hakimiyyət devriləcək"*

# İran Ermənistana üçüncü elektrik xətti çəkilişini niyə dayandırdı...

***Mübariz Əhmədoğlu:** "Bunun həm iqtisadi, həm də siyasi səbəbləri var"*

Layihənin reallaşmasının təxirə salınmasının səbəblərindən biri kimi İranın bank sistemində yaranmış vəziyyət göstərilib.

Qeyd edək ki, İran-Ermənistan üçüncü elektrik ötürücüsü xəttinin tikintisinin 2019-cu il sentyabrın 1-də başa çatacağı planlaşdırılırdı. Əsas podratçısı İranın "Sunir" şirkətidir. Layihənin ümumi dəyəri 107,9 milyon avrodur. Bunun 77 faizi İranın İxracatın İnkişafı Bankının, 23 faizi isə "Sunir"in payına düşür.

Erməni tərəfi bunu İranın bank sistemindəki problemlərlə əlaqələndirsə də, əslində, bu versiya o qədər də real görünmür. Nəzərə almaq lazımdır ki, İranın "Sunir" şirkətinə iki ölkə arasında yüksək gərginlikli elektrik xəttinin çəkilməsinə icazə 2016-cı ildə verilib. İranla Ermənistan arasında bu layihə ilə bağlı memorandum 2006-cı ildə imzalanıb. Bu xətt İrandan Ermənistanın Mehri, daha sonra Razdan rayonuna çəkiləcək. Proqramın davamı olaraq, layihə Gürcüstanda həyata keçiriləcək. İranın indiki dönəmdə işləri dayandırması təkcə bankla bağlı olan məsələ deyil. Belə görünür ki, son vaxtlar Ermənistanın ABŞ-a yönəlik reveransları İranda xoş qarşılanmayıb. Bəzi məlumatlara görə, Paşinyan İrana qarşı ABŞ-a müəyyən gizli vədlər verib. Ən nəhayət, sözügedən elektrik xəttinin iqtisadi baxımdan səmərəli olmaması ilə bağlı ortaya çıxan məsələlər də bunda rol oynaya bilər.

Maraqlıdır, bəs ekspertlər İranın Ermənistana yönəlik bu addımının səbəbini nə ilə əlaqələndirirlər?

Məsələyə münasibət bildirən Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlunun sözlərinə görə, bunun həm iqtisadi, həm də siyasi səbəbləri var: "Üçüncü elektrik ötürücüsü xəttinin tikintisinin dayanmasının bir səbəbi bank ödəmələrinin dayanması ilə bağlıdır. Məsələ ondadır ki,



layihəni həyata keçirən İranın "Sunir" şirkəti olsa da, vəsaitin böyük hissəsini Avropa İttifaqı verir. Smetanın dəyəri 120 milyon avrodur. Onun da 80 miyonunu Aİ ayırıb. Yerdə qalan hissəni İranla Ermənistan maliyyələşdirir. ABŞ sanksiyaları səbəbindən Aİ ilə Ermənistan İrana pul köçürə bilməz. Digər tərəfdən, Ermənistan sanksiya məsələsində ABŞ-ın mövqeyindən çıxış edir. Milliyyətcə erməni olan İran vətəndaşlarının Ermənistanda bank hesabı açmasına icazə verilmir. Paşinyanın ABŞ-ın İrana qarşı oyunlarında iştirak etməsi real faktdır. Bunu İran tərəfi də bilir və gedişə proseslərin fərqindədir. ABŞ-ın Ermənistandakı səfirliyinin 54 əməkdaşı var. Onların yarısı İran üzrə mütəxəssisdir. Onlardan hətta bəziləri vaxtilə İran vətəndaşı olan şəxslərdir. Onlar turist xətti ilə İrandan Ermənistana gələnlər arasında söhbət aparırlar, məlumat toplayırlar. Bir sözlə, İranın daxilindəki vəziyyəti bilirlər. Ermənistanın hazırkı hakimiyyəti hesab edir ki, İranda mövcud hakimiyyət devriləcək. Ona görə də Ermənistan bu oyunlarda ABŞ-la əməkdaşlıq edir. Onlar istəyirlər ki, bu prosesdən son nəticədə fayda götürsünlər. Ona görə də Ermənistanın İrana qarşı münasibəti düzgün deyil. Ancaq, sadəcə olaraq, İranda müəyyən qüvvələr var ki, onlar istəyir Ermənistan bu ölkə üçün ancaq yaxşı gözdə görünsün. Hər vasitə ilə Ermənistanla münasibətləri yüksək səviyyədə saxlamağa çalışırlar".

**Vidadi ORDAHALLI**

**Dünyanın ən böyük ixracatçı ölkəsi qismində çıxış edən Çinin bu gün xüsusi diqqət mərkəzində yer alan ölkələrdən biri də Azərbaycandır. Ekspertlər bunu təsadüfi saymır. Əvvəla, Çinin "Bir kəmər, bir yol" layihəsi çərçivəsində həlledici əhəmiyyətə malik ölkələrdən biri Azərbaycandır.**

# Çinin böyük ixrac və Azərbaycanın güclü qovşaq potensialları - dünya yeni reallıq qarşısında...




İkinci bir tərəfdən, Azərbaycanın gərgin səyləri nəticəsində ərsəyə gələn Bakı-Tiflis-Qars dəmir yolu xətti bu gün Çin məhsullarının Avropa bazarlarına çıxmasında müstəsna əhəmiyyət kəsb edir.

Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu da Çinin Azərbaycana marağını artıran əsas məqamlardan biri sayılır. Çinin rəsmi İnformasiya Agentliyi olan "Sinhua" bu xüsusda yazır: "Azərbaycan enerji, nəqliyyat, logistika qovşağı yaradaraq Avropa və Asiyanı təşviq etməyi hədəfləyir. Bu təşəbbüsün bir parçası olaraq, Azərbaycan hökuməti Azərbaycan və Çin arasında infrastruktur və qarşılıqlı əlaqə sahəsində münasibətləri genişləndirməyə xidmət edən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu ilə bağlı model layihəni həyata keçirməyə çalışır. Sözügedən marşrut 3500 kilometri əhatə edir, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu Şərqdə Qazaxıstanın Çinlə sərhədində yerləşən Dostık şəhəri ilə Qərbdən Azərbaycanı birləşdirir. Marşrutun əsas keçidi dəmir yoludur və bunun tərkib hissəsi olaraq Xəzər dənizinin bərə ilə keçilməsi planlaşdırılır". Həmçinin məqalədə vurğulanır ki, həqiqətən, son illər həyata keçirilən birgə səylər nəticəsində Çin tərəfindən təklif olunan "Bir kəmər və bir yol" layihəsi ilə Azərbaycanın Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutuna inteqrasiyasında əhəmiyyətli nəticələr əldə edilib: "Bu il iyulun 6-da Çinin "Dəmir Yolu Express"i Xian şəhərindən başlayaraq 17 günlük səfərdən sonra maşın avadanlıqları və elektron qurğulardan ibarət yükü olan Sian-Bakı blok qatarı Bakıya çatıb. Sözügedən dəhlizin fəaliyyətə başlaması Çini bir sıra ölkələrlə birləşdirir və yükləri dəniz yolu ilə nəqliyyatdan 20 gün daha sürətli çatdırmaq imkanı verir. "Çin Dəmir Yolu Express"in daha çox qatarlarından istifadə edilməklə "Bir kəmər və bir yol"un bağlantısının gücləndirməsinin şahidi oluruq".

Bütün bu qeyd edilənlər fonunda Çin rəsmilərinin son dövrlərdə Azərbaycana intensivləşən səfərləri, əldə edilən yeni razılıqlar da təbii sayıla bilər. Azərbaycan da Çinlə əməkdaşlığın inkişaf etdirilməsində maraqlı tərəf qismində çıxış edir. Çünki Çinin ixrac etdiyi ümumi məhsulların həcmi 2,5 trilyon dollara çatır. Bu həcmdə yüklərin dünya bazarlarına çıxarılmasında iştirak edən ölkələr tranzit haqqı olaraq bundan yüksək gəlir əldə edir. Yuxarıda qeyd olunduğu kimi, indi Çin üçün ən sərfəli marşrut təklif edən ölkə qismində Azərbaycan çıxış edir. Təsadüfi deyil ki, Çin "Bir kəmər, bir yol" layihəsi çərçivəsində bütün diqqəti məhz Bakı-Tiflis-Qarsa yönəldib. Pekin burada onu da nəzərə alır ki, Çindən gələn malların Avropaya daşınması üçün Azərbaycanda mükəmməl infrastruktur yaradılıb. Ölkəmizin Qazaxıstanın Aktau limanından yükləri daşımaq üçün 260 gəmidən ibarət güclü donanması var. Bu yüklərin boşaldılması və yola salınması üçün isə Ələtdə beynəlxalq əhəmiyyətli liman tikilib. Limandan yüklərin Avropa ölkələrinə daşınması üçün Bakı-Tiflis-Qars fəaliyyət göstərir. Eyni zamanda, "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərində yerləşən ölkələr öz mallarını nəql etmək üçün Azərbaycanın ərazisindən istifadə edir. Məhz bütün bunlar Çinin Azərbaycana daha çox diqqət ayırmasına rəvac verir. Belə bir vaxtda Azərbaycan və Türkiyənin atacağı növbəti addım Çinin diqqətini daha çox ölkəmizə yönəldəcək. Məsələ burasındadır ki, Azərbaycanla Türkiyə arasında sadələşdirilmiş gömrük xətti yaradılacaq. Türkiyənin Vitse-prezidenti Fuat Oktay bildirib ki, Güzəştli Ticarət Anlaşmasının bu il ərzində imzalanması, qarşılıqlı ticarətin asanlaşdırılması, gömrük prosedurlarının sürətləndirilməsi üçün iki ölkə arasında sadələşdirilmiş gömrük xəttinin yaradılması məsələsində razılıq əldə olunub.

Azərbaycanla Türkiyə arasında sadələşdirilmiş gömrük xəttinin yaradılmasını Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti Elşən Bağırzadə belə şərh edib ki, bu hal mühüm əhəmiyyət kəsb edir: "Məsələyə bir qədər makro səviyyədə baxmaq lazımdır. Dünya iqtisadiyyatında Çinin irəli sürdüyü "Bir kəmər, bir yol" layihəsi var. O, Azərbaycan və Türkiyə də daxil olmaqla, dünyanın 60-dan çox ölkəsini əhatə edir. Bu layihə Çinin dünya iqtisadiyyatına inteqrasiyasını gücləndirir, eyni zamanda Çinlə Avropa arasındakı nəqliyyat, tranzit imkanlarının genişləndirilməsinə xidmət edir. Burada ən vacib məqamlardan biri Çinlə Avropa İttifaqı arasında həyata keçirilən ticarətdə bölgədəki ölkələrin gömrük sistemlərində mövcud olan problemlər və uyğunsuzluqlardır. Problemlər ondan ibarətdir ki, hər bir ölkədə gömrük proseduru fərqli olduğu və bir-birinə inteqrasiya etmədiyi üçün gecikmələr baş verir. Bu gecikmələr də Türkiyə və Azərbaycanın yerləşdiyi ticarət dəhlizinin rəqabət qabiliyyətini aşağı salır. Azərbaycan və Türkiyə "Bir kəmər, bir yol" layihəsinə qoşulub və bu yolun ticarət üçün daha əlverişli olmasına çalışır. Yəni məsələnin qlobal tərəfi odur ki, Azərbaycanla Türkiyə arasında gömrük keçidləri kifayət qədər sadələşdirilsin". Ekspert bildirib ki, bu, eyni zamanda, Azərbaycanla Türkiyə arasında ticarət dövriyyəsinin artmasına xidmət edir: "Gömrük sisteminin bir-birinə inteqrasiya olunması və Orta Asiya ölkələrinin də bu prosesə qoşulması Azərbaycan və Türkiyənin Şərq-Qərb dəhlizində mövqeyini gücləndirir, qlobal tranzit daşımalarından daha böyük pay almasına xidmət edir. Yəni artıq bizim yerləşdiyimiz region dünyada yeganə əlverişli məkan deyil, Şərqlə Qərb arasında yükdaşımalarda, ticarətdə, malların axınında alternativ yollar var. Bu yollar inkişaf etdikcə Azərbaycanın da öz dəhlizini daha rəqabətqabiliyyətli etməsini tələb edir. Ona görə də bu istiqamətdə atılan hər bir addım alqışlanmalıdır. Hələ də bir sıra uyğunsuzluqlar var. Bu da Türkiyə ilə Azərbaycanın arasında gömrük rejimlərinin fərqli olmasından irəli gəlir. Türkiyə Avropa Gömrük İttifaqına üzv olan ölkədir. Azərbaycan isə MDB məkanında sərbəst ticarət anlaşmaları imzalayıb, yəni bu sistemlər arasında bəzi fərqlər var. Amma düşünürəm ki, ən azı, seçimli ticarət sazişləri ilə problemləri müəyyən qədər aradan qaldırmaq olar. Azərbaycanla Türkiyə arasında bir neçə məhsul üzrə də gömrük rüsumlarının aşağı salınması gözlənilir. Gömrük nə qədər sadə olsa, insanlar daha çox gedib-gələr və daha çox ticarət əməliyyatları həyata keçirər. Ticarətdə uduzan tərəf yoxdur, hər kəs qazanır. Bu da əhalinin rifahına xidmət edir".

Beləliklə, Azərbaycan və Türkiyənin atacağı addımlar Çindən gələn yüklərin mənzilbaşına daha tez çatmasına rəvac verəcək. Elə bu da Pektinin Azərbaycana diqqətinin artmasını şərtləndirən başlıca faktorlardan sayılır. Bu arada, hesablamalara əsasən isə, 2020-ci ilə qədər Şərq-Qərb istiqamətində Çin tərəfdən Qərbə göndərilən yüklər 5 dəfə artaraq 1,3 milyon konteynerə çatacaq. Bunun ən azı 300 mininin məhz Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu ilə daşınması gözlənilir. Belə vəziyyət, öz növbəsində, tranzit yükdışmalardan Azərbaycana kifayət qədər böyük gəlirlər vəd edir.

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Nyu-York görüşü Paşinyanla danışıq aparılmasının mənasızlığını aydın göstərdi

**Ermənistan hakimiyyətinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tutduğu mövqe artıq bu ölkə ilə məsələnin sülh yolu ilə çözümü üçün danışıqlar aparılmasına hansısa ehtiyacın qalmadığını göstərir. Bunun ən real təsdiqi iki ölkənin xarici işlər nazirlərinin sön görüşü oldu.**

Xatırladaq ki, Nyu-York şəhərində Azərbaycan və Ermənistanın xarici işlər nazirləri Elmar Məmmədyarovla Zöhrab Mnatsakanyan arasında görüş keçirilib. Nazirlərin görüşündə ATƏT-in Minsk Qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi də iştirak edib. Azərbaycanın Xarici İşlər Nazirliyinin Nyu-York görüşü ilə bağlı yaydığı bəyanat da təsdiqlədi ki, görüş formal xarakter daşıyıb. Bəyanatda qeyd olunur ki, görüş zamanı ATƏT-in Minsk Qrupunun həmsədrlərinin bölgəyə sülh gətirmək və bölgədə beynəlxalq norma və prinsiplərə, qaydalara hörmət edilməsi ilə bağlı səylərini genişləndirməli olduqları anlayışı ilə mövcud danışıqlar üzrə sadəcə fikir mübadiləsi aparılıb. Beləliklə, Nyu-York görüşündə real nəticələr əldə olunmayıb.

Beləliklə, qeyd edilənlərdən bir daha aydın görünür ki, Azərbaycan və Ermənistan arasında ikincinin günahı üzündən danışıqlar faktiki olaraq dalana dirənib. Bu şəraitdə Ermənistanla yenidən masa arxasında bir araya gəlməyə hansısa ehtiyac da yoxdur. Təbii ki, belə vəziyyət həm də Qarabağ münaqişəsinin alternativ yolla həllini aktuallaşdırır. Qeyd olunduğu kimi, bütün bunlara əsas səbəb də Ermənistanın atdığı addımlar nəticəsində danışıqların davam etdirilməsinin heç bir mənasının qalmamasıdır. Rusiya Federasiyasının birinci dərəcəli dövlət müşaviri Modest Kolerov da bildirir ki, artıq Qarabağ danışıqlarının davam etdirilməsinin heç bir lüzumu yoxdur. Onun sözlərinə görə, Paşinyanın "Qarabağ Ermənistandır, vəssalam" bəyanatı danışıqlar prosesinin başa çatması deməkdir və son olaylar, xarici işlər nazirlərinin formal xarakter daşıyan görüşü də bunun təsdiqidir: "Paşinyanın bu sözləri isə 20 illik danışıqlar prosesinin yanlış olduğunu göstərir. Qeyd edim ki, Rusiya Paşinyanın "Qarabağ Ermənistandır" bəyanatını qəbul etmir. Bu bəyanat nə deməkdir? Bu, danışıqlar prosesinin sonu, 20 illik danışıqlar prosesinin səhv olması anlamına gəlir. Bu bir qədər kobud səslənə bilər, amma mən deyə bilərəm ki, hakim partiyadan hansısa deputat bununla bağlı layihə təqdim etmirsə, bu, boşboğazlıqdan başqa bir şey deyil. Ermənistan bunu mütləq nəzərə almalıdır".

Qafqaz ölkələri üzrə ekspert Stanislav Tarasov da bu mövqeni dəstəkləyir. Onun sözlərinə görə, Paşinyanın "Qarabağ Ermənistandır, vəssalam" bəyanatı qəribə təəssürat yaratdı: "Belə vəziyyətdə mən heç bir xüsusi, ciddi nəticə gözləmirəm, çünki Dağlıq Qarabağ münaqişəsinin nizama salınması dialoqu hakimiyyət dəyişikliyindən sonra, fikrimcə, müsbət inkişaf edirdi. Paşinyan Əliyevlə görüşürdü, onlar Düşənbədə razılaşdılar, operativ əlaqə yaratdılar və tərəflər arasında hərbi insidentlər dayandırıldı. İndi sual yaranır ki, vəziyyəti kim və necə dəyişdi? Yalnız ictimai tərəf haqqında danışsaq, bu çətin olacaq, çünki mən hər zaman qeyd edirəm ki, Dağlıq Qarabağ münaqişəsinin çoxlu sayda kölgə tərəfləri var. Biz bunlar haqqında bilmirik, lakin başa düşürük ki, bunlar var. Paşinyanın "Qarabağ Ermənistandır, vəssalam" bəyanatı isə qəribə təəssürat yaratdı, çünki heç kim erməniləri irəvanlılara, qarabağlılara və digərlərinə ayırmağa hazırlaşmırdı. Sən mövqe dəyişikliyi haqqında bəyanat verirsən, bu isə mühüm dəyişikliyi nəzərdə tutur. Bunun nəticəsi odur ki, sən danışıqlar prosesini dayandırırsan və yeni mövqeyini aydınlaşdırırsan. Lakin Paşinyan bu sözləri deyəndə hər şey başa çatdı. Bu səbəbdən Mnatsakanyan Məmmədyarovla keçmiş formatda görüşür, cəbhə xəttində vəziyyət dəyişib. İndi nədən danışırlar? Güman etmək çətindir, çünki danışıqlar artıq dayanmağa doğru gedir və bunun alternativinin nə olduğunu Ermənistanda da başa düşməmiş deyillər. Belə vəziyyətdə Qarabağ savaşının yenilənməsi tamamilə gözlənilir".

Əslində, hadisələrin məhz qeyd edilən səpkidə inkişafının mümkünlüyünü Minsk Qrupunun Azərbaycan və Ermənistan XİN rəhbərlərinin görüşü ilə bağlı bəyanatından da aydın sezmək olar. Bu bəyanat, demək olar ki, əsas etibarı ilə Ermənistan tərəfinə, o cümlədən də bu ölkənin baş nazirinə ünvanlanıb. Bəyanatda bu xüsusda həmsədrlər qeyd edir: "Həmsədrlər və nazirlər gərginliyin azaldılması, mövcud şəraitin saxlanması, sülhə imkan yaradan və danışıqlar üçün əlverişli olan predmetlər üzrə əlavə tədbirlərin müzakirəsini davam etdiriblər. Həmsədrləri martın 9-da qəbul etdikləri bəyanata istinad edərək, tərəfləri danışıqların nəticələrini pozan və ya onu qabaqcadan müəyyən edən ritorikadan istifadə etməyi minimallaşdırmağa çağırırlar". Bu fikirlərdən aydın görünür ki, həmsədrlər Nikol Paşinyanın Qarabağa dair bəyanatlarını rədd edir. Belə görünür ki, həmsədrlərin bu mövqeyinə rəğmən, Ermənistana real təzyiqlər olmayacağı halda işğalçı indiki mövqeyindən geri çəkilməyəcək. Bu isə, yuxarıda qeyd olunduğu kimi, artıq Qarabağ məsələsində post danışıqlar dövrünün başlanması ilə müşayiət edilməkdədir. Belə vəziyyət alternativ variant kimi savaşı qaçılmaz edir və bu savaşda erməni tərəfinin uğrayacağı məğlubiyyətlə Ermənistan, xüsusən də Paşinyanın özü üçün fəlakətli olacaq. Real mənzərə bundan ibarətdir ki, Paşinyan da sələfləri kimi Qarabağ kartından istifadə edərək siyasi, sosial və iqtisadi cəhətdən xal toplamağa çalışır. Ancaq hadisələr göstərir ki, Qarabağ məsələsi Levon Ter-Petrosyanı, Robert Köçəryanı, Serj Sarkisyanı hakimiyyətə gətirdiyi kimi, həm də devirdi. Bu baxımdan, növbədə Paşinyanın olduğunu da ehtimal etmək olar. Çünki mümkün yeni Qarabağ savaşında Azərbaycanın qazanacağı qələbələr Paşinyan üçün ciddi zərbə olacaq. Hər halda, 2016-cı ilin aprelində baş verənlər Sarkisyan iqtidarının sonunun sürətlənməsində birmənalı şəkildə mühüm rol oynadı. Yəni ortada konkret nümunə var və Paşinyanın bunu mütləq şəkildə nəzərə alması vacibdir. Elə rus ekspert Andrey Frolov da bunu vacib sayır.

Onun sözlərinə görə, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həll edilməməsi savaşı aktuallaşdırır və bu zaman İrəvan nəzərə almalıdır ki, Bakı Silahlı Qüvvələrinin inkişafına, Ermənistandan fərqli olaraq, kifayət qədər böyük vəsaitlər ayırıb, onu əhəmiyyətli dərəcədə gücləndirib: "Silahlı Qüvvələrini yeniləmə tempi baxımından Azərbaycan son illərdə MDB-nin aparıcı ölkələrindən birinə çevrilib. Azərbaycan həm Rusiyadan, həm də başqa ölkələrdən bahalı, ciddi, yaxşı xarakteristikalara malik silah sistemləri alır. Bu silahların bəziləri 2016-cı ilin aprel hadisələri zamanı istifadə olunub. Say, texnoloji baxımdan Azərbaycan ordusu Ermənistan ordusundan üstündür. Elə 2016-cı ilin aprel döyüşlərində də ermənilər Azərbaycan ordusunun imkanlarını, özlərinin sandıqları kimi sarsılmaz ordularının olmadığını anladılar. İndi Qarabağ danışıqlarının dayanması halında bu olayların yenidən təkrarlanma ehtimalı böyükdür". Beləliklə, qeyd edilənlər bir daha təsdiq edir ki, Qarabağ danışıqlarının dayanması məsələnin hərbi həllini tezləşdirə bilər və burada zərbə alacaq yeganə tərəf qismində də Ermənistan çıxış edir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Azərbaycanın coğrafi mövqeyi və burada qurduğu nəqliyyat infrastukturu bu gün həm Qərbdə, həm də Asiyada xüsusi diqqətlə izlənilir. Belə görünür ki, bu prosesdə indi dünyanın iqtisadi güc mərkəzləri ölkəmizlə işbirliyini genişləndirməyi düşünür. Söhbət ilk növbədə Avropadan, Rusiyadan, Çindən, Hindistandan gedir.**

# Nəqliyyat dəhlizləri Azərbaycanın beynəlxalq mövqeyinin güclənməsinə yeni imkanlar açdı...




Ekspertlər hesab edir ki, atılan addımlar və görülən genişmiqyaslı işlər sayəsində yaxın tezlikdə Azərbaycan dünya üçün daha mühüm nəqliyyat qovşağına çevrilməklə yanaşı, həm də beynəlxalq yükdaşımalardan külli miqdarda gəlir əldə edəcək. Bütün bunlar təsadüfi sayılmır. İlk növbədə o baxımdan ki, Bakı-Tiflis-Qars dəmir yolunun, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikilib istifadəyə verilməsi və azad iqtisadi zonanın yaradılması Azərbaycanı Mərkəzi Asiyanı Qərblə, o cümlədən Avropa İttifaqı ilə, Cənubi Asiyanı, ilk növbədə də İran və Hindistanı Şimalla birləşdirən nəqliyyat qovşağına çevirib. Bu fonda xüsusi diqqət cəlb edən məqamlar isə "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizləridir.

Hazırda "Şimal-Cənub" dəhlizinin tam işə düşməsi, demək olar, bütün Avrasiya məkanında böyük səbrsizliklə gözlənilir. "Şimal-Cənub" dəhlizinin tam işə düşməsi üçün Rəşt-Astara dəmir yolunun tikintisinin tam yekunlaşması zərurətdir. Hazırda yolun tikintisi sürətlə həyata keçirilir və bundan sonra Hindistan yüklərinin Azərbaycan üzərindən şimala daşınmasına başlanacaq. Onu da bildirək ki, "Şimal-Cənub" dəhlizi Hindistan və Cənubi-Şərqi Asiya ölkələrindən gələn yüklərin İranın Bəndər-Abbas limanından Azərbaycan üzərindən daşınmasını təmin edəcək. Bu marşrut üzrə ildə 10-15 milyon ton yük daşınması planlaşdırılır və Azərbaycan tranzitdən çox böyük gəlirlər əldə edə bilər. Bu dəhlizlə Cənub-Şərqi Asiyadan Avropaya yüklərin daşınması 10-15 faiz ucuz başa gələcək. Yüklərin Süveyş kanalı vasitəsilə daşınmasından 800 kilometr daha az məsafə qət ediləcək. Eyni zamanda, daşıma müddəti 20 gün azalacaq. Belə ki, "Şimal-Cənub" dəhlizi Hindistan-İran-Azərbaycan-Rusiya-Skandinaviya və Şimalı Avropa marşrutu üzrə fəaliyyət göstərir. Qeyd edək ki, Hindistanla yanaşı, Sinqapur və Malayziya da "Şimal-Cənub" dəhlizinə maraq göstərir. Bu ölkələrin böyüyən iqtisadiyyatı və Avropa dövlətləri ilə ticarət əlaqələrinin genişlənməsi nəqliyyat probleminin həllini tələb edir. Belə vəziyyətdə "Şimal-Cənub" həmin ölkələr üçün alternativsiz seçim sayılır. Bundan əlavə, "Şimal-Cənub" dəhlizi sayəsində keçmiş SSRİ məkanından Azərbaycana daxil olan qatarların qısa zaman kəsiyində İran və Anadolu məkanına çatması təmin olunub. Belarusun, Baltikyanı dövlətlərin və Finlandiyanın "Şimal-Cənub" dəhlizinə maraq göstərmələri isə onun əhəmiyyətini daha da artırır.

"Şərq-Qərb" dəhlizi barədə də eyni sözləri demək mümkündür. Sözügedən dəhlizin həyata keçirilməsi istiqamətində Azərbaycanın atdığı ən mühüm addımlardan biri Bakı-Tiflis-Qars dəmir yolu layihəsidir. Bu, "Şərq-Qərb" nəqliyyat dəhlizinin əsas hissələrindən biri hesab olunur. Qeyd edək ki, "Şərq-Qərb" dəhlizi Çin-Qazaxıstan-Xəzər dənizi-Azərbaycan-Gürcüstan-Türkiyə-Avropa marşrutu üzrə hərəkət edir, Çindən Avropaya və əks istiqamətə yüklərin daşınmasını nəzərdə tutur. Bu layihə Çinin irəli sürdüyü "Bir kəmər-bir yol" layihəsində Orta Dəhliz adlanan hissəni təşkil edir və Azərbaycan bu layihədə ən mühüm tərəfdaşlardandır. Məhz Azərbaycanın iradəsi ilə həyata keçirilən Bakı-Tiflis-Qars dəmir yolu "Şərq-Qərb" dəhlizinin, ümumilikdə "Bir kəmər-bir yol" layihəsinin həyata vəsiqə almasını sürətləndirdi.

Ümumiyyətlə, belə hesab edilir ki, "Şimal-Cənub", "Şərq-Qərb", Bakı-Tiflis-Qars, "Cənub-Qərb" və "Lapis Lazuli" beynəlxalq nəqliyyat dəhlizlərinin qovuşduğu məkanda yerləşən Azərbaycan Avropa ilə Asiyanı birləşdirən logistik zəncirin əsas halqasına çevrilmək üçün hər cür şəraitə malikdir. Elə bu da Azərbaycana beynəlxalq diqqəti əhəmiyyətli dərəcədə artırır. Bunu Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyinin rəhbəri səfir Kestutis Yankauskasın səsləndirdiyi fikirlər də təsdiq edir. Onun sözlərinə görə, Azərbaycan regionda nəqliyyat qovşağı olmaq istiqamətində mühüm addımlar atır: "Bunun mənası odur ki, bütün nəqliyyat xətləri Azərbaycanda kəsişir. Şimal, Cənub, Şərq və Qərbi Avropa İttifaqı olaraq biz təkcə Şərq və Qərb nəqliyyat yollarının deyil, eyni zamanda Şimal və Cənub yollarının da Azərbaycanda kəsişməsində maraqlıyıq. Bu həmin nəqliyyat qovşağının necə əlaqəli işləməsini göstərir. Biz Azərbaycanda daha çox yolların kəsişməsini dəstəkləyirik.

İkincisi, mən bildiyim qədər, Avropa Yenidənqurma və İnkişaf Bankı və Asiya İnkişaf Bankı bu prosesə dəstək verməyə hazırdır. Avropa Yenidənqurma və İnkişaf Bankının dəstəklədiyi Gəncədən-Tiflisə gedən yolun sərhədə qədər olan hissəsinin yekunlaşdırılması işləri gedir. Həmçinin ADB Bakı-Yalama dəmiryolu xəttinin reabilitasiyasının həyata keçirilməsinə dəstək verir. İnanıram ki, Azərbaycan daha böyük dəstək istəsə, Avropa Yenidənqurma və İnkişaf Bankı və Avropa İnvestisiya Bankı dəstək verə bilər. Biz öz ortaq maraqlarımız naminə Azərbaycana dəstək verməyə hazırıq". Beləliklə, Azərbaycanın nəqliyyat sahəsində həyata keçirdiyi siyasət Avropada da xüsusi diqqətlə izlənir və Avropa ölkələri bu səpkidə Azərbaycanla işbirliyini genişləndirməyə hazırdır.

Mürəkkəb regionda geostrateji qütblər arasında münasibətlərin daha da kəskinləşdiyi bir vaxtda Azərbaycana belə diqqət ayrılması isə rəsmi Bakının mühüm uğuru sayıla bilər. Belə vəziyyət ölkəmizin yerləşdiyi coğrafiyada ümumi təhlükəsizliyin təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır. Eləcə də bu nəqliyyat layihələrinin reallaşdırılması ilə ölkəmiz beynəlxalq tranzit mərkəzə çevrilməklə yanaşı, iqtisadi tərəqqisini daha da sürətlənəcək.

***Tahir TAĞIYEV***

**Ermənistanın Baş naziri Nikol Paşinyan Los-Anceles səfərindən əliboş qayıdıb. ABŞ-da heç bir rəsmi səviyyədə qəbul edilməyən Paşinyan Amerikanın erməni icmasından da lazımi dəstək ala bilməyib. O görüşdən Paşinyanın yeganə qazandığı təsəlli özünün və arvadının ABŞ Prezidenti Donald Trampla çəkdirdiyi şəkildir.**

# Paşinyanla arvadı, nəhayət, Trampla şəkil çəkdirə bildilər...



***Azər Həsrət:** "Paşinyanla arvadının Trampla çəkdirdikləri şəklin Paşinyan tərəfindən bu şəkildə yayılması, reklam edilməsi onun özünü "nüfuzlu dövlət xadimi" kimi təqdim etmək cəhdləridir"*

Səfər çərçivəsindəki ziyafətlərdən birində Paşinyanla arvadı fürsəti əldən verməyərək Trampla və onun həyat yoldaşı ilə şəkil çəkdirməyə nail olublar. Qeyri-rəsmi görüş şəraitində çəkilən bu fotonu Paşinyan sosial şəbəkələrdəki hesablarında yaymağa başlayıb.

Paşinyanın Tramp və onun həyat yoldaşı ilə çəkdirdiyi şəkli yaymaqda məqsədi nədir? O bununla nə demək istəyir?

Tanınmış ekspert, Əməkdar jurnalist Azər Həsrət "Bakı-Xəbər"ə bildirdi ki, Paşinyan bu foto ilə ABŞ səfərinin uğursuzluğunu ört-basdır etmək istəyir. A.Həsrətin sözlərinə görə, Paşinyan bu fotonu yaymaqla, əslində, erməni xalqını özünün növbəti bir yalanına inandırmaq istəyir ki, guya o, Trampla kəlmə kəsib, söz danışıb. Paşinyanın ABŞ səfərinin, birmənalı olaraq, fiaskoya uğradığını deyən A.Həsrətin dediyinə görə, Paşinyan Amerikada çox aşağı səviyyədə qəbul edilib: "Əslində, Paşinyanın ABŞ-a, xüsusən də Los-Ancelesə, Kaliforniyaya səfəri bir fiaskodur. Çünki o, orada həm erməni diasporu nümayəndələrindən yetərincə dəstək ala bilmədi, həm də yüksək səviyyədə qəbul olunmadı. Xüsusən də Kaliforniyanın yüksək vəzifəli rəsmiləri Paşinyanı qəbul olunma bir ölkənin Baş naziri üçün ayıb bir şeydir. Donald Tramp bir yana, hətta ştatların rəhbərləri belə ona sayğı göstərməyiblər. Bu da fiaskodan

*"...onun arxasında öz siyasi təbliğatını qurmaq, iyrənc, saxta niyyətini həyata keçirmək məqsədi güdür"*

qəbul etməkdən imtina etdilər. Onu Kaliforniya ştatının qubernator müavini səviyyəsində qəbul etdilər. Əlbəttə, bu cür qarşılanma və başqa bir şey deyil. Paşinyanla arvadı hansa bir ziyafətdə yan-yana durub Trampla və onun həyat yoldaşı ilə şəkil çəkdiriblərsə, yaxud ayaqüstü söhbət ediblərsə, bu heç də onlar arasında isti münasibətin olması anlamına gəlmir. Bu, sıradan bir hadisədir. Paşinyanla arvadının Trampla çəkdirdikləri şəklin Paşinyan tərəfindən bu şəkildə yayılması, reklam edilməsi onun özünü "nüfuzlu dövlət xadimi" kimi təqdim etmək cəhdləridir. Bu, həmçinin, Paşinyanın bir siyasətçi kimi tükənməsinin və aşağı səviyyəli bir insan olmasının göstəricisidir. Bu fotoda qeyri-adi heç nə yoxdur, amma Paşinyan o şəkildən geniş sui-istifadə edərək onun arxasında öz siyasi təbliğatını qurmaq, iyrənc, saxta niyyətini həyata keçirmək məqsədi güdür".

***İradə SARIYEVA***

**Azərbaycan vətəndaşlarının sosial müdafiəsinin gücləndirilməsində Prezident İlham Əliyev tərəfindən həyata keçirilən sosial paketlərin mühüm rolu var. Bu gün cəmiyyətimizin sosial rifahının yüksəldilməsində son bir il ərzində həyata keçirilən sosial paketlər böyük əhəmiyyətə malikdir.**

# Son bir ildə sosial paketlər və Azərbaycanda ailə dayanıqlığı - boşanmalara nə kimi təsirlər var...



***Aytəkin Kamranqızı:** "Son bir ildə qədul edilən sosial paketlər Azərbaycan ailələrinin dayanıqlığının təmin edilməsinə və boşanmaların azalmasına müsbət təsir göstərib"*

***Könül Vaqifqızı:** "Hesab edirəm ki, biz bunun daha müsbət nəticələrini qarşıdakı illərdə də görəcəyik"*

Dövlət başçısı tərəfindən ölkəmizdə həyata keçirilən yeni islahatlar konsepsiyasının əsas məqsədi Azərbaycanı daha güclü, qüdrətli ölkəyə çevirməkdir. Sözsüz ki, əsas hədəf Azərbaycan vətəndaşının sosial rifahını yüksəltmək, güzəranını daha da yaxşılaşdırmaqdır. Bildiyimiz kimi, bu məqsədlə Prezident İlham Əliyev son bir ildə bir neçə sosial paket həyata keçirib ki, həmin sosial paketlər vətəndaşların sosial rifah halının yüksəlməsinə gətirib çıxarıb.

Son bir ildə ölkəmizdə gerçəkləşdirilən sosial paketlər Azərbaycanda ailələrin dayanıqlı olmasına, boşanmaların sayının azalmasına nə kimi təsirlər göstərir?

Sosioloq Aytəkin Kamranqızı "Bakı-Xəbər"ə bildirdi ki, son bir ildə ölkə başçısının müvafiq sərəncamları ilə maaşların, pensiyaların, sosial müavinətlərin, minimum əməkhaqqının artırılması əhalinin güzəranında, ailələrin dayanıqlı olmasında, eləcə də boşanmaların sayının azalmasında mühüm rol oynayır. Ekspertin sözlərinə görə, bu gün Azərbaycan ailəsinin güzəranında müsbət mənada köklü dəyişikliklər var. "Ölkə başçısı tərəfindən həyata keçirilən sosial paketlər özünü Azərbaycan ailəsinin güzəranında açıq şəkildə göstərir. Son bir ildə əməkhaqlarının artması, minimum əməkhaqqının bir ildə 2 dəfə qaldırılaraq 250 manata, minimum pensiyanın 200 manata çatdırılması əhalinin rifah halının yüksəlməsini təmin edir. Sosial sahələrin inkişafı daim Prezidentin diqqət mərkəzindədir. Dövlət başçısının həyata keçirdiyi sosial islahatlar ailələrin vəziyyətinə müsbət təsir göstərib. Göründüyü kimi, Prezidentin sosial sahəyə xüsusi diqqət və qayğısı, imzaladığı fərman və sərəncamlar, qəbul etdiyi qərarlar Azərbaycan ailəsinin xeyrinədir və bu özünü sosial paketlərin timsalında açıq şəkildə göstərir. Düşünürəm ki, 2019-cu il ölkəmizdə sosial inkişaf ili kimi dəyərləndirilməlidir. Prezident İlham Əliyevin həyata keçirdiyi sosial paketlərin əhatə dairəsi çox genişdir və bundan hər bir vətəndaş bəhrələnir. Hesab edirəm ki, son bir ildə qəbul edilən sosial paketlər Azərbaycan ailələrinin dayanıqlığının təmin edilməsinə və boşanmaların azalmasına müsbət təsir göstərib. Bir sıra hallarda, ailələrin dayanıqlığını sosial vəziyyətin ürəkaçan olmaması pozurdu, boşanmalara da çox zaman maddi sıxıntılar, bu sıxıntıların gətirdiyi psixoloji, sosioloji gərginlik səbəb olurdu".

Psixoloq Könül Vaqifqızı da hesab edir ki, sosial paketlərin ardıcıl olaraq qəbul edilməsindən hər bir vətəndaşa pay düşüb. K.Vaqifqızının sözlərinə görə, bu gün həm paytaxtda, həm də bölgələrdə ailələrin dayanıqlığının təmin olunmasında bu sosial paketlər mühüm əhəmiyyət kəsb edir. "Hesab edirəm ki, ölkə başçısının həyata keçirdiyi sosial islahatlar Azərbaycan vətəndaşlarının, ailələrin həyatında müsbət mənada dəyişikliklərə səbəb oldu. Həm əməkhaqlarının, həm də müavinətlərin artırılması ailələrdə xoş əhval yaratdı. Deyim ki, müraciət edənlərin böyük əksəriyyəti bir çox hallarda sosial problemlər üzündən ailəsində gərginlik olduğunu qeyd edirdilər. Amma müşahidələr göstərir ki, qəbul edilən sosial paketlər vətəndaşların həm maddi rifahına, həm psixoloji-mənəvi vəziyyətinə, həm də ailələrinin qorunmasına müsbət mənada təsirsiz ötüşməyib. Sirr deyil ki, boşanmalara yol açan amillərdən biri hər zaman sosial problemlər olub, bunun nəticəsində ailələr dağılıb, boşanmalar artıb. Bilirsiniz ki, Azərbaycanda boşanmaların sayının azalmasında xeyli irəliləyiş var. Yəni sosial problemlər üzündən ayrılanlar elə də çoxluq təşkil etmir. Ölkə başçısının həyata keçirdiyi sosial paketlər ailələrin qorunmasına, boşanmaların azalmasına yaxşı mənada təsirsiz ötüşməyib. Hesab edirəm ki, biz bunun daha müsbət nəticələrini qarşıdakı illərdə də görəcəyik" - deyə K.Vaqifqızı qeyd etdi.

*İradə SARIYEVA*

**"Uşaq-ana", "Uşaq nikahları" - mənasız və kobud səslənən bu cür fikirlər son vaxtlar sosial problem kimi dünya ölkələrini narahat etməkdədir. Azyaşlı qızların oğlanlarla seksual münasibətinin yaşı get-gedə aşağı düşür. Araşdırmalara görə, hər il dünyada 15 yaşına qədər 7,3 milyon yeniyetmə qız ana olur.**

# Bakı uşaq nikahlarının sayına görə "liderdir"...




***Fatimə Hacıbəyli:** "Bölgələrdə yaşayanların bir qismi paytaxtda məskunlaşdığı üçün, Bakıda qeydə alınan erkən nikahların sayı üstünlük təşkil edir"*

Onlardan 2 milyonu 14 yaşına qədər dünyaya erkən uşaq gətirir və daha erkən cinsi əlaqədə olur.

Azərbaycanda uşaq nikahlarının daha çox qeydə alındığı şəhər və rayonların adları açıqlanıb. Belə ki, uşaq nikahları daha çox Bakıda qeydə alınır. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin İnformasiya və analitik araşdırmalar şöbəsinin müdiri Elgün Səfərov media nümayəndələrinə açıqlamasında qeyd edib ki, uşaq nikahlarının daha çox qeydə alındığı yer Bakı şəhəridir: "Növbəti sırada Şəki rayonu dayanır. Daha sonra Gəncəbasar zonası (Gəncə, Ağstafa, Gədəbəy, Daşkəsən və s.) və cənub zonası qərarlaşıb. Təbii ki, uşaq nikahları ilə bağlı problemlər bütün dünyada olduğu kimi, Azərbaycanda da var. Bu problemlərin qarşısını almaq üçün isə koordinasiyalı şəkildə işlər aparmaq lazımdır. Sırf bundan ümumrespublika "qaynar xətt" mərkəzi yaradılmalıdır. Təbii ki, istər uşaq nikahları, istərsə də digər zorakılıq halları ilə bağlı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə siqnal daxil olan kimi, avtomatik olaraq, biz həmin faktla bağlı əməkdaşlarımızı cəlb edirik. Bu cür halla üzləşən ailə ilə danışıqlar və müzakirələr aparırıq. Ailələri erkən yaşda olan qız uşaqlarının yetkinlik yaşına çatması üçün dəstək olmağa çağırırıq. Bəzi hallarda bizə o siqnallar gec çatır və bu zaman artıq intihar və digər xoşagəlməz hadisələr baş verir".

Uşaq nikahlarının daha çox Bakıda və Şəkidə qeydə alınması maraq doğurur.

"Vəfa" Sosial-İctimai Birliyinin rəhbəri Fatimə Hacıbəyli bizimlə söhbətində qeyd etdi ki, yetkinlik yaşına çatmayanların erkən nikahı və hamiləliyinin qarşısının alınması istiqamətində ölkədə mühüm tədbirlər həyata keçirilir: "Belə ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Heydər Əliyev Fondu tərəfindən müəyyən layihələr icra olunur. Bununla belə, problem qalmaqdadır. Müəyyən dövr vardı ki, məişət zorakılığı, insan alveri qurbanları, çətin vəziyyətdə yaşayanlar 13-15 yaşlarında ailə qurur və dünyaya uşaq gətirirdilər. Hazırda bununla bağlı vəziyyət o qədər də gərgin deyil. Amma cəza tədbirlərinin nəzərdə tutulmasına baxmayaraq, yenə də faktlar kifayət qədərdir".

**Uşaq nikahlarının daha çox Bakıda qeydə alınmasına gəlincə, həmsöhbətimiz bildirdi ki, bölgələrdə yaşayanların bir qismi paytaxtda məskunlaşdığı üçün, Bakıda qeydə alınan erkən nikahların sayı üstünlük təşkil edir: "Artıq neçə ildir erkən nikahların qeydə alındığı bölgələr üzrə Bakı və Gəncəbasar zonası üstünlük təşkil edir. Uşaq nikahlarının paytaxtda üstünlük təşkil etməsinə gəlincə, onu deyə bilərəm ki, bu hal daha çox Bakıətrafı kəndlərdə qeydə alınır".**

*Günel CƏLİLOVA*

# Qida Təhlükəsizliyi Agentliyinə misilsiz ittiham - "Leş Tofiq"ə sertifikatı kim verib...

***Qida Təhlükəsizliyi Agentliyi:** "Leş əti satan və ya qanunsuz fəaliyyət göstərən hansısa müəssisənin məhsullarına Qida Təhlükəsizliyi Agentliyi tərəfindən "sertifikat"ların verilməsi ilə bağlı reallığı əks etdirməyən, əsassız məlumatlar yayılmaqdadır"*

**"Qida Təhlükəsizliyi Agentliyi "Leş Tofiq"ə sertifikat verib". Bu sensasion bəyanatla Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov çıxış edib. E.Hüseynov açıqlamasında bildirib ki, aparılan araşdırmalar nəticəsində bəlli olub ki, onlara fəaliyyət göstərmək üçün rəsmi icazə verilib:**

"Bu məsələ ilə bağlı monitorinqlər aparılır, fəal işlər görülür. İstehlakçının telefon zənginin əsasında mənə verilən məlumata görə, "Leş Tofiq"in kəsim yerinə sertifikat verilib. Görünür, onların göstərdikləri yaxşı məkanlara baxış keçirilib və buna əsasən də sertifikat verilib. Bu cinayətkar dəstə əsas işini isə başqa yerlərdə həyata keçirib və o məkanlara hansısa aidiyyəti qurum əməkdaşının baxmaq imkanı olmayıb".

Birlik sədri leş ətlərin xəstəlik mənbəyi, çox təhlükəli olduğunu bildirib: "Leş ətlər insan orqanizminə böyük fəsadlar vura bilər. Leş ətlər xəstəlikdən ölmüş heyvanlardır. Ona görə də bu ətlər vasitəsilə heyvan xəstəliklərinin insanlara keçmə ehtimalı yüksəksidir".

Qida Təhlükəsizliyi Agentliyinin "Leş Tofiq"ə sertifikat verməsi ittihamı ilə bağlı adıçəkilən agentliklə əlaqə saxladıq. Qida Təhlükəsizliyi Agentliyinin mətbuat xidmətindən "Bakı-Xəbər"ə verilən məlumata görə, bir sıra sosial şəbəkə səhifələrində leş əti satan və ya qanunsuz fəaliyyət göstərən hansısa müəssisənin məhsullarına AQTA tərəfindən "sertifikat"ların verilməsi ilə bağlı reallığı əks etdirməyən, əsassız məlumatlar yayılmaqdadır: "Həqiqəti əks etdirməyən, insanlar arasında təşviş və çaşqınlıq yaradan bu cür böhtan xarakterli məlumatlar son illər əhalinin təhlükəsiz qida ilə təmin olunması istiqamətində hüquq-mühafizə orqanları və digər aidiyyəti qurumlarla birgə görülən irimiqyaslı işlərə, ortaya qoyulan nəticələrə kölgə salmaq məqsədi daşıyır. AQTA fəaliyyətə başladığı gündən etibarən qida məhsullarının dövlət gigiyena qeydiyyatına alınaraq sertifikatlaşdırılması proseduru qida məhsulları sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin qeydiyyatı ilə əvəz olunub. Bu, bir daha hansısa heyvan kəsimi və ictimai iaşə müəssisəsində emal olunan qida məshullarına AQTA tərəfindən sertifikatın verilməsi ilə bağlı yayılan xəbərin absurd və əsassız olduğunu sübut edir.

Məlum olduğu kimi, 1 iyul 2018-ci il tarixindən etibarən AQTA tərəfindən qida sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin qida təhlükəsizliyi qeydiyyatı həyata keçirilir və onlara reyestrdən çıxarışlar təqdim olunur.

Eyni zamanda, həmin sahibkarlıq subyektlərinin fəaliyyət istiqamətinə uyğun risq dərəcələri müəyyənləşdirilir və buna görə dövri olaraq nəzarət tədbirləri həyata keçirilir. Nəzarət tədbirləri zamanı həmin müəssisələrdə AQTA mütəxəssisləri tərəfindən qanunsuz hallar aşkar olunduqda qanunvericiliyin tələbləri çərçivəsində müvafiq tədbirlər görülür. Yəni qida təhlükəsizliyi qeydiyyatından keçmiş istənilən sahibkarlıq subyektinin gələcəkdə hər hansı qanunsuz əməllə məşğul olmayacağı üçün bu bir əsas deyil və elə buna görə də həmin sahibkarlıq subyektlərində dövri olaraq yoxlama-nəzarət tədbirləri həyata keçirilir.

Məlumat üçün bildiririk ki, agentlik fəaliyyətə başladığı ilk gündən etibarən qanunsuz heyvan kəsimi fəaliyyəti və mənşəyi məlum olmayan ətlərin dövriyyədən çıxarılması istiqamətində mütəmadi nəzarət tədbirləri, reydlər həyata keçirir və bu cür qanunsuz fəaliyyətlərə qarşı qətiyyətli mübarizə bundan sonra da davam etdiriləcək. Təkcə onu deyə bilərik ki, AQTA əməkdaşları tərəfindən aparılan nəzarət tədbirləri çərçivəsində 2019-cu ilin yanvar-sentyabr ayları ərzində insan sağlamlığı üçün təhlükə yaradan 90 ton 294,649 kq ət və ət məhsulları dövriyyədən çıxarılaraq məhv edilib, bu kimi qanunsuz fəaliyyətlə məşğul olan onlarla şəxs haqqında məlumatlar hüquq-mühafizə orqanlarına təqdim olunub.

**Xüsusilə qeyd etmək lazımdır ki, son günlər ictimaiyyət tərəfindən geniş maraq və nifrət doğuran "Leş Tofiq" ləqəbli Alıbəy Rzaxanov və onun cinayətkar dəstəsi də elə həmin məlumatların hüquq-mühafizə orqanlarına ötürülməsi və birgə keçirilən tədbirlər nəticəsində ifşa edilib. Agentlik bir daha bəyan edir ki, dövlət orqanının fəaliyyətinə dair rəsmi mövqeyə və faktlara əsaslanmayan, böhtan xarakterli, bu cür sifarişli məlumatların yayımlanması görülən əsaslı işlərə kölgə salmaq, insanlar arasında təşviş, eləcə də çaşqınlıq yaratmaq məqsədi daşıyır və qətiyyən yolverilməzdir".**

***Günel CƏLİLOVA***




*"...görülən əsaslı işlərə kölgə salmaq, insanlar arasında təşviş yaratmaq məqsədi daşıyır"*







# Əhalinin siyahıyaalınması: dayanıqlı inkişaf üçün mühüm informasiya mənbəyi

**Hər bir ölkədə əhalini siyahıyaalma vacib dövlət siyasətinin əsas tərkib hissəsini təşkil edir. Dünya təcrübəsinə nəzər saldıqda görərik ki, bir sıra Avropa ölkələrində bu proses ilk dəfə XVIII əsrin sonları, XIX əsrin əvvəllərində həyata keçirilməyə başlayıb. Bu dövrdə siyahıyaalmaların təşkili və onların proqramlarının müəyyənləşdirilməsi üçün əsaslar qoyulub.**

Həmin dövrdə əhalini siyahıyaalma hər 10 ildən bir Birləşmiş Ştatlar və İngiltərədə, hər 5 ildən bir Fransa və İsveçdə, 3-4 ildən bir Avstriyada müntəzəm şəkildə, Danimarka, İslandiya, Norveçdə, eləcə də bəzi ərazilərdə, əsasən ABŞ-ın müstəmləkələrində qeyri-müntəzəm şəkildə keçirilib. Bu siyahıyaalma məhdud sayda əlamətləri nəzərə almaqla, bütün əhalini əhatə etmirdi və onların materiallarının işlənməsi bir çox il çəkirdi. İkinci mərhələdə (XIX əsrin ikinci yarısı - XX əsrin birinci yarısı) əhali siyahıyaalmaları Avropanın və Amerikanın bütün ölkələrində, bəzi Asiya və Afrika ölkələrində başlayıb. Əhalini siyahıyaalma üzrə növbəti təkmilləşdirmə 1846-cı ildə Belçikada keçirilən siyahıyaalma ilə bağlıdır və əhali siyahıyaalmasının müasir anlayışına keçidi təmin edirdi.

Azərbaycan əhalisini siyahıyaalma işinə Sovet dövründə başlanıb. Doğrudur, bundan əvvəl mövcud olan Çar Rusiyası dövründə də əhalini kameral siyahıyaalma prosesi getmişdi. Belə ki, 1897-ci ildə Çar Rusiyası Azərbaycan əhalisini də siyahıyaalmaya cəlb edib. Amma respublika olaraq ilk dəfə Azərbaycan əhalisini siyahıyaalma Sovet hakimiyyətinin ilk illərində həyata keçirilib. Belə ki, 17 dekabr 1926-ci ildə SSRİ-də əhalini ilk siyahıyaalma aparılıb. Bu siyahıyaalmada Zaqafqaziya Sosialist Federativ Sovet Respublikasının tərkibinə daxil olan Azərbaycan SSR əhalisi də siyahıya alınıb. Siyahıyaalma zamanı Azərbaycan SSR ərazisində 35 şəhər və 5788 kənd yaşayış məntəqəsi mövcud olub.

Qeyd edək ki, Azərbaycan əhalisi 1926-cı, 1939-cu, 1959-cu, 1970-ci, 1979-cu, 1989-cu illərdə, müstəqillik dönəmində isə 1999-cu, 2009-cu illərdə siyahıya alınıb. Onu da vurğulayaq ki, bu siyahıyaalmalar zamanı ölkəmizin əhalisi haqqında ətraflı məlumatlar toplanıb.

Məlum olduğu kimi, bu il oktyabrın 1-10-da Azərbaycanda əhalini növbəti siyahıyaalma keçiriləcək. Heç şübhəsiz ki, əhalini siyahıyaalma məlumatları cəmiyyətin inkişaf meyllərinin düzgün öyrənilməsi üçün çox əhəmiyyətli rəsmi statistika olmaqla yanaşı, baza xarakterli statistik məlumatların əldə edilməsinin əsas mənbəyidir.

Oktyabrın 1-10-da baş tutacaq əhalini siyahıyaalma prosesi Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 sentyabr tarixli Fərmanına əsasən həyata keçirilir. Məlum olduğu kimi, "Azərbaycan Respublikasında əhalini siyahıyaalmanın hazırlanıb keçirilməsi üzrə təqvim planı"na uyğun olaraq, əhalini siyahıyaalma ilə bağlı hazırlıq işlərinin görülməsini və onun keçirilməsini, yekunlarının işlənməsini, nəticələrinin dərc edilərək yayılmasını təmin etmək məqsədilə Dövlət Statistika Komitəsində Siyahıyaalma qrupu yaradılıb.

Qeyd edək ki, siyahıyaalma vərəqəsi ölkə üzrə ev təsərrüfatlarının və ailələrin sayına, yaşayış binaları və evlərinə, yaşayış üçün istifadə edilən digər tikililərə dair ətraflı məlumatların əldə olunmasına imkan verir. Sorğu vərəqəsində siyahıya alınacaq hər bir şəxsin cinsi, yaşı, doğulduğu yer, vətəndaşlığı, milli (etnik) mənsubiyyəti, ana dili və sərbəst danışdığı dillər, ailə vəziyyəti, siyahıyaalma anında olduğu yerdə daimi və ya müvəqqəti yaşaması, təhsil səviyyəsi, gəlir mənbələri, məşğulluq vəziyyəti, əlilliyi, əhalinin ölkədaxili yerdəyişməsinin və xarici miqrasiyanın səbəbləri və sair mühüm göstəricilər üzrə suallar öz əksini tapıb. Bildirək ki, siyahıyaalma vərəqəsində 6 sual, sorğu vərəqəsində isə altsuallar da daxil olmaqla 46 sual nəzərdə tutulub. Məşğulluq sahəsində milli qanunvericiliyə və Beynəlxalq Əmək Təşkilatı tərəfindən qəbul edilmiş beynəlxalq metodologiyalara əsaslanaraq, sorğu vərəqəsinə işçi qüvvəsini, həmçinin, potensial işçi qüvvəsini, əhalinin məşğulluğunu, o cümlədən, özünüməşğulluğunu, işsizliyini, iqtisadi qeyri-fəallığını və öz şəxsi istehlakı üçün mal istehsalı ilə məşğul olanları müəyyən edən bir sıra suallar daxil olunub.

Məlumatlara görə, bu suallar əsasında iqtisadi və inzibati rayonlar üzrə peşə və vəzifələr, iqtisadi fəaliyyət növləri, cins və yaş bölgüsündə işçi qüvvəsinə dair əldə olunacaq məlumatlar ölkədə əmək ehtiyatlarının istifadəsinin əhatəli qiymətləndirilməsinə və əmək bazarında mövcud vəziyyəti daha geniş təhlil etməyə imkan verəcək.

Əvvəlki siyahıyaalmadan fərqli olaraq, bu dəfə bir sıra yeniliklər edilib. Belə ki, sorğu vərəqəsinə ilk dəfə olaraq əlilliyə dair suallar daxil edilib. Əlilliyə dair suallar ölkədə sağlamlıq imkanları məhdud uşaqların və əlilliyi olan şəxslərin mənzil-məişət şəraitinə, təhsilinə və məşğulluğuna, habelə siyahıyaalma çərçivəsində toplanan digər göstəricilərə dair məlumatların əldə edilməsinə imkan yaradacaq. Əhalini siyahıyaalmanın məlumatlarının elektron məlumat sisteminə daxil edilməsi, işlənməsi və yekunların əldə edilməsi məqsədilə məsələ qoyuluşu, çıxış cədvəllərinin nümunələri, kodlaşdırma soraqçaları və siyahıyaalma ilə bağlı müvafiq proqram təminatı da hazırlanıb.

Dövlət Statistika Komitəsi sədrinin birinci müavini, iqtisad üzrə fəlsəfə doktoru Vahab Məmmədovun sözlərinə görə, siyahıyaalmada istifadə olunacaq sorğu vərəqələrinə, həmçinin, inzibati ərazi vahidləri üzrə əmək ehtiyatlarının istifadəsini və əmək bazarında mövcud vəziyyəti daha dolğun təhlil etmək məqsədilə, beynəlxalq metodoloji yanaşmalara əsaslanaraq, işçi qüvvəsinin tərkibi və əhalinin məşğulluğuna dair bir sıra suallar daxil edilib: "Sorğu vərəqələri elə tərtib olunub ki, alınacaq məlumatlar bundan əvvəlki siyahıyaalmanın göstəriciləri ilə müqayisə aparılmasına imkan yaratsın. 2019-cu il əhali siyahıyaalması bütün əhali üçün vahid olan siyahıyaalma proqramı əsasında, sayıcılar tərəfindən bütün yaşayış yerlərini (müvəqqəti yaşayış yeri də daxil olmaqla) əhatə etməklə sorğu yolu ilə aparılacaq. Bu yanaşma nəticəsində əhalinin faktiki məskunlaşması barədə də mühüm məlumatlar əldə ediləcək".

Əhalini siyahıyaalma məlumatları cəmiyyətin inkişaf meyllərinin düzgün öyrənilməsi üçün çox əhəmiyyətli rəsmi statistika olduğu gizlin deyil.

Dünya birliyinin qəbul etdiyi, bugünkü və gələcək nəsillərin inkişafı baxımından fundamental əhəmiyyət kəsb edən 17 qlobal məqsəd və 169 hədəfdən ibarət "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" ("Gündəlik-2030") cəmiyyətin yeni inkişaf mərhələsinin başlanğıcı olmaqla, əhali haqqında yüksək keyfiyyətli, aktual, etibarlı və daha müfəssəl məlumatların mövcudluğunu ön plana çəkir. "Gündəlik-2030"dan irəli gələn vəzifələr dayanıqlı inkişaf üzrə yeni milli strategiyaların, proqramların və fəaliyyət planlarının hazırlanmasını tələb edir ki, bu da, öz növbəsində, insanları xarakterizə edən gəlir, cins, yaş, əlillik, miqrasiya statusu, dini, etnik mənsubiyyəti, coğrafi məskunlaşma və milli şəraitə uyğun digər əlamətlərə görə məlumatlara malik olmadan mümkün deyil. Əhalini siyahıyaalmanın mühüm dövlət tədbiri olduğunu qeyd edən ekspertlər hesab edirlər ki, ərazilərimizin 20 faizinin işğal olunduğu müharibə, habelə dərin iqtisadi və siyasi böhran şəraitində kollektiv təsərrüfat sistemindən müasir bazar iqtisadiyyatına keçid dövründə təzahür edən sosial problemlər demoqrafik meyllərə təsirsiz ötüşə bilməyib. Ekspertlət vurğulayırlar ki, 1994-cü ildə imzalanmış atəşkəs razılığı, 1996-cı ildə əldə olunmuş makroiqtisadi sabitlik və 1997-ci ildən başlamış dinamik sosial-iqtisadi inkişaf müsbət sosial-demoqrafik proseslərin dərindən öyrənilməsi və təhlili üçün milli siyahıyaalmanın keçirilməsini zəruri edib.

Azərbaycan əhalisi haqqında dolğun məlumatlar ilk dəfə 1999-cu ildə müstəqil Azərbaycan Respublikasında keçirilmiş əhalini siyahıyaalma prosesi zamanı məlum olub.

Sosioloqların bildirdiyinə görə, son 10 il ərzində ölkə əhalisinin demoqrafik göstəriciləri xeyli dəyişib, bu halda əhali haqqında yeni demoqrafik məlumatların toplanması zərurəti yeni siyahıyaalmanın keçirilməsini qaçılmaz edib. 2009-cu ildə 8 milyon 922,4 min əhalisi olan Azərbaycanda növbəti siyahıyaalma ərəfəsində 10 milyonuncu sakin qeydiyyata alınıb.

Sosioloqlar vurğulayırlar ki, əhalini siyahıyaalma baza xarakterli statistik məlumatların əldə edilməsinin əsas mənbəyidir. Onlar hesab edirlər ki, müasir dövrdə sosial-iqtisadi proseslərin idarə olunmasında, informasiya məkanının formalaşdırılmasında, ölkələrin inkişaf səviyyəsinin qiymətləndirilməsində rəsmi statistikanın əhəmiyyəti daha da artıb. Bu gün statistika məlumatı olmadan dünyada mühüm qərarların qəbul edilməsi mümkün deyil. Qlobal səviyyədə baş verən proseslər də göstərir ki, dəqiq statistika olmadan dayanıqlı inkişafa nail olmaq mümkün deyil. Əhalinin iqtisadi ehtiyacları və davranışları ictimai həyatın müxtəlif mərhələlərində fərqləndiyini qeyd edən mütəxəssislərin bildirdiyinə görə, onların yaş-cins strukturunda baş verən dəyişikliklər ümumi sosial-iqtisadi fəaliyyətə əhəmiyyətli dərəcədə təsir göstərir. Bu səbəbdən də dayanıqlı inkişaf üçün əhalinin sayı, tərkibi, məşğulluq vəziyyəti, təhsili, məskunlaşması və digər demoqrafik xüsusiyyətləri, eləcə də artım tendensiyası haqqında məlumatlar mühüm əhəmiyyət kəsb edir.

Əhalini siyahıyaalma ölkənin bütün vətəndaşlarına aid demoqrafik, iqtisadi və sosial məlumatların müəyyən olunmuş vaxtda toplanması, ümumiləşdirilməsi, öyrənilməsi və yayılması deməkdir.

Azərbaycanda əhalini siyahıyaalma prosesinin başlanmasına çox az vaxt qalıb. Hesab edirik ki, bu bu proses ölkəmizdə uğurla həyata keçiriləcək. Siyahıyaalma prosesi ilə bağlı əhali arasında aparılan maarifçilik işi də öz bəhrəsini verir. Bunun nəticəsidir ki, ölkə əhalisi siyahıyaalma prosesini böyük maraqla gözləyir.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi birgə müsabiqəyə təqdim edilir.**

# Dissertasiya müdafiəsində yorucu "kağızçılıq" aradan qaldırılır

**Son illər insanların dissertasiya yazıb elmi iş müdafiə etməsi, alimlik elmi dərəcəsi alması müxtəlif pilləli imtahan prosesləri ilə müşayiət olunurdu. Dissertasiya müdafiə etmək ərəfəsində olan şəxslər müdafiəyə qədərki mərhələdə o qədər çətinliklə qarşılaşırdılar ki, bir sıra hallarda bu, elm üçün gərəkli olanların bu sahədən üz döndərməsinə səbəb olurdu.**

Müdafiəyə qədərki prosesin hədsiz dərəcədə çətin olması müəyyən neqativ halların yaranmasına gətirib çıxarırdı. Hədsiz dərəcədə sənədlərin toplanması, qalın cildli elmi işin yazılması tələbi dissertantlar üçün ciddi əngəl törədirdi. Sirr deyil ki, bu da plagiatlıq kimi halların meydana çıxmasına da şərait yaradırdı. Elmdə optimallaşmanın vacibliyi hər zaman qeyd edilir və dissertasiya müdafiəsinə qədərki mərhələnin sadələşdirilməsi təklif olunurdu.

Nəhayət ki, dissertantlar üçün böyük əngəllər yaradan pilləvari prosedur qaydalarına dəyişiklik edildi və onlar sadələşdirildi. Dissertantların verdiyi məlumata görə, artıq çoxmərhələli imtahan prosesi kənarda qalıb, dissertasiyaların qalınlığı ilə bağlı tələb də aradan qaldırılıb. Hazırda dissertantlardan cəmi 70 səhifəlik dissertasiya tələb olunur ki, onu da yazmaq elə də çətin deyil. Ortaya çıxan yeni tələb isə hər bir müdafiə edəcək şəxsin xarici ölkə mətbuatında, elmi jurnallarında, toplularında ən azı iki məqaləsinin nəşr edilməsidir.

Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov "Bakı-Xəbər"ə bildirdi ki, bu il Prezident İlham Əliyev Ali Attestasiya Komissiyası haqqında əsasnaməni təsdiq etdi və yeni əsasnamədə bir sıra yeniliklər öz əksini tapdı. O qeyd etdi ki, həmçinin, Ali Attestasiya Komissiyasının rəhbərliyi dəyişdirildi, quruma yeni sədr təyin edildi. "Cəmiyyətin gözləntiləri ondan ibarət idi ki, Prezident yanında Ali Attestasiya Komissiyası kimi kifayət qədər mötəbər bir qurumda yeniləşmə olacaq, burada mövcud olmuş bürokratik əngəllər aradan qalxacaq və əsl elmlə məşğul olan insanlar üçün şərait yaradılacaq, illərlə üst-üstə yığılan narazılıqlara son qoyulacaq. Əlbəttə, yeni əsasnamənin təsdiqlənməsi ölkə başçısının Azərbaycan elminin inkişafına verdiyi dəyərin nümunəsi idi. Cənab Prezident mükəmməl bir sənədi imzaladı. Bu gün biz ölkə başçısının imzaladığı bu sənədin fayda verdiyinin şahidi oluruq. Ali Attestasiya Komissiyasının həyatında baş verən dəyişiklikləri bu quruma sənəd verən insanlar aydın şəkildə hiss edirlər. Ali Attestasiya Komissiyasının fəaliyyəti haqqında müsbət fikirlər səsləndirilirsə, bu, xeyli sevindirici haldır. Amma, bütövlükdə, dissertasiyaların həcminin azalmasında elə də böyük dəyişiklik olmayıb. Ali Attestasiya Komissiyasının əsasnaməsində dissertasiyaların həcmi ilə bağlı konkret göstərişlər var və bu, açıq

***İlqar Orucov:** "Həqiqətən də dissertasiya müdafiə etmək istəyən şəxslər üçün problemlər aradan qaldırılıb"*



şəkildə ifadə olunub. Humanitar elm sahələrində dissertasiyaların həcminin 20 faiz artıq olması təlimatda göstərilib. Həqiqətən də dissertasiya müdafiə etmək istəyən şəxslər üçün problemlər aradan qaldırılıb. Komissiyanın əvvəlki rəhbərliyində bir qədər bürokrat insanlar təmsil olunurdu. Açığını deyim ki, yeni rəhbərlik tərəfindən köhnə rəhbərliyin dövründə olan əngəllər aradan qaldırılmaqdadır. Ümid edirəm ki, Ali Attestasiya Komissiyası ətrafında dolaşan köhnədən qalan mənfi söz-söhbətlər aradan tamamilə qaldırılacaq. Bu belə də olmalıdır. Elmi ictimaiyyət yeni rəhbərlikdən uğurlu işlər gözləyir. Bildiyim qədər, yeni rəhbərlikdə də xeyli prinsipial insan təmsil olunur və hesab edirəm ki, dissertasiya müdafiə etmək istəyən iddiaçılar üçün münbit şərait yaradılacaq. Bütövlükdə, dissertasiya müdafiə etmək proseduru elə də asan deyil və bunun üçün xeyli mərhələni keçmək lazımdır. Bu tələb komissiya tərəfindən həmişə ortaya qoyulub və bu, əsasnamədə də əksini tapıb. Dissertasiya müdafiəsi sahəsində bir sıra bürokratik əngəllər aradan qaldırılıb, amma dissertasiyalar üçün qoyulan tələblər çox ciddidir. Deməzdim ki, o tələblər yüngülləşdirilib. Əlbəttə, elmi iş müdafiə edib alim olmaq istəyənlər bu tələblərə uyğun elmi iş ortaya qoymalıdırlar. Burada, əslində, bir bürokratiya görmürəm.

Düşünürəm ki, bu məsələnin hazırda başqa bir həlli yolu yoxdur. Baxmayaraq, arada alternativ fikirlər səslənir ki, xaricdə Ali Attestasiya Komissiyası yoxdur və bu işi müvafiq kafedralar həyata keçirir. Lakin Azərbaycan reallığı onu tələb edir ki, bizdə Ali Attestasiya Komissiyası fəaliyyət göstərsin və orada şəffaflıq təmin olunsun. Çünki bizim kafedralarımız, elmi müəssisələrimiz təəssüf ki, bu kimi məsuliyyətin altına girməyə hazır deyillər. Əksinə, Ali Attestasiya Komissiyasının bu səlahiyyəti universitetlərin kafedralarına və elmi-tədqiqat institutlarına verilsə, burada kifayət qədər problem, insanları narazı salan məqamlar ortaya çıxacaq" - deyə İ.Orucov vurğuladı.

***İradə SARIYEVA***

# Kimsəsiz uşaqların müdafiəsi ilə bağlı daha bir tədbir Tərtərdə keçirildi



**Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi, "Kimsəsiz Uşaqların Sosial Müdafiəsi" İctimai Birliyinin təşkilatçılığı ilə həyata keçirilən "Uşaqları və gəncləri məişət zorakılığından qorumaq üçün cəmiyyətin maarifləndirilməsi" adlı 4 aylıq layihənin üçüncü tədbiri Tərtər rayon Yeni Azərbaycan Partiyasında (YAP) təşkil olunub.**

Zorakılıq və onun gündən-günə artan formaları dünyanın ən qorxulu ictimai problemlərindəndir. Bu zorakılıq daha çox azyaşlı uşaqlara qarşı yönələndə isə məsələnin daha təhlükəli həddə çatdığı aydın olur. Uşaqlarla davranış, məktəbdə, cəmiyyətdə, xüsusilə ailədə onlara münasibət o qədər incə, həm də məsuliyyətli işdir ki, bu sahədə ehtiyatlı olmaq lazımdır. Tədbirin də məqsədi ölkəmizdə məişət zorakılığına qarşı mübarizə, zorakılığın doğurduğu mənfi hüquqi və sosial nəticələrin qarşısının alınması, məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial müdafiəsi istiqamətində maarifləndirici tədbirlər həyata keçirməkdir.

Uşaqlara qarşı edilən zorakılığın qarşısını almaq üçün cəmiyyətin hər bir fərdinin üzərinə böyük məsuliyyət düşür. Amma təəssüf ki, hələ də insanlar bu məsələlərə çox laqeyd yanaşırlar. Valideynlər anlamalıdırlar ki, uşaq onların mülkiyyəti deyil. Valideyn uşağın inkişafı, təhsili, tərbiyəsi, sağlamlığının müdafiəsi ilə məşğul olmalıdırlar. Uşaq hüquqlarını pozan bütün hallar uşaq zorakılığı sayılır. Böyüklərin uşaqlarla kobud rəftarı onların inkişafına, sağlamlığına və ləyaqətinə zərər vurur. Psixi və fiziki travmaya səbəb olan davranışlar - zorakılıq (fiziki, psixoloji, cinsi, iqtisadi), qayğısızlıq və etinasızlıq uşaqların həyatında ömürlük iz qoyur.

Tərtər Rayon İcra Hakimiyyəti Aparatı İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Elvin Umudov bu cür həssas mövzuda maarifləndirici tədbirin Tərtər rayonunda icrasına görə icra başçısı adından layihə rəhbəri Lamiyə İsazadəyə təşəkkürünü bildirib. Tədbirdə Təhsil Şöbəsindən metodiki kabinetin sədri İntiqam Nuruyev, təhsil şöbəsinin əməkdaşları, məktəb və bağça müəllimləri, psixoloqlar məişət zorakılığı mövzusunda öz fikirlərini ifadə ediblər. Tədbirdə uşaqları və gəncləri zorakılıqdan, intihardan necə qorumaq haqqında geniş mükazirələr aparılıb.

Layihə çərçivəsində dörd şəhər və rayonda "məişət zorakılığı" mövzusunda tədbirlərin keçirilməsi nəzərdə tutulur. Bakı, Gəncə və Tərtər rayonlarında tədbirlər icra olunub, yekun tədbir isə oktyabr ayında Şəmkir şəhərində təşkil olunacaq.

***Lamiyə İSAZADƏ***
***"Kimsəsiz Uşaqların Sosial Müdafiəsi" İctimai Birliyinin sədri***

# Ət satışı qaydalarını pozanlar 5 min manat cərimə olunacaq...

**Məlum olduğu kimi, Azərbaycanda heyvanların, heyvan mənşəli məhsulların və xammalın baytarlıq normalarına cavab verməsini təsdiq edən ekspertiza aktının verilməsinə, yaxud ətin, heyvan və quş cəmdəklərinin və digər məhsulların üzərinə nişan qoyulmasına görə 5 qəpikdən - 5 manatadək dövlət rüsumu tutulacaq.**

*"Heyvanların identifikasiya prosesi baş tutduqdan sonra onun üzərinə nişan qoyulmalıdır, bu qərar köhnə baytarlığın vurduğu dairəvi möhürü əvəz edəcək"*

**Eyyub Hüseynov:** *"Ətlərin keyfiyyətinə insanların inanması üçün öncə heyvanların identifikasiya prosesi aparılmalıdır"*



Qeyd edək ki, Nazirlər Kabineti bununla bağlı "Dövlət baytarlıq nəzarəti obyektlərinin baytarlıq (baytarlıq-sanitariya) ekspertizasının aparılması qaydaları"nda müvafiq dəyişiklik edib. Xatırladaq ki, bir neçə ay əvvəl Azərbaycanın Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) sədri Qoşqar Təhməzli bildirib ki, artıq qurum Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə heyvanların identifikasiyası sahəsində işlərə başlayıb. Ət satışı ilə bağlı edilən dəyişikliklərə münasibət bildirən Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov qeyd etdi ki, əvvəlcə heyvanların identifikasiya prosesi aparılmalıdır: "Yəni heyvan doğulduğu andan ölənə qədər, eyni zamanda ölkəyə idxal edilən bütün heyvanlar identifikasiya olunmalıdır. Bu elə bir prosesdir ki, bu zaman heyvan doğulanda qeydiyyata salınır, heyvana vurulan peyvəndlər, keçirdiyi xəstəliklər və bir çox proseslər daima izlənilir. Ətlərin keyfiyyətinə insanların inanması üçün bu baş tutmalı, ilk növbədə bu məsələ həll edilməlidir".

Həmsöhbətimizin sözlərinə görə, hazırda ölkədəki heyvanların heç 1 faizinin belə identifikasiyası aparılmayıb. Heyvanların identifikasiya prosesi baş tutduqdan sonra onun üzərinə nişan qoyulmalıdır: "Zənnimcə, bu qərar köhnə baytarlığın vurduğu dairəvi möhürü əvəz edəcək.

**Onu da deyim ki, dairəvi möhürə insanlar artıq etibar etmir. Heyvanların identifikasiya prosesi baş tutsa, bu nişanların önəmi olacaq. Əks halda, bunun dəyişikliklərə səbəb olacağına inanmıram".**

*Günel CƏLİLOVA*

# 15 yaşlı qızlarda abort? - özü də bir ildə 1238 fakt...

**Biz qadın deyəndə yalnız onun zahiri gözəlliyi, cazibədarlığı deyil, həmçinin ana olmasını, dünyaya övlad gətirməsini gözümüz önündə canlandırırıq. Qadının varlığı yer üzündə insan nəslinin daim var olması və coxalmasıdır.**

*"Uşaqlar daha sərbəst, daha rahat və seksual azad olmağa üstünlük verirlər, təbii ki, təcrübəsizlik, eyni zamanda, nəzarətsizlik, ailədə zorakılıq halları buna təsir göstərir"*

**Fatimə Hacıbəyli:** *"Məktəb yaşlı qız uşaqlarının abort statistikasında nəzarətsiz uşaqların da payı az deyil"*



Məhz buna görə də müdriklər "ana haqqı- tanrı haqqıdır" deyiblər. Hər dəfə uşaq dünyaya gələndə onun valideynlərini təbrik edirlər. Lakin son zamanlar (dünyanın bir çox ölkələrində bu tendensiya mövcuddur) qadın hamilə olanda həm özü, həm də ailə üzləri narahat olur, nə edəcəklərini, necə qərar verəcəklərini düşünürlər. Çıxış yolunu isə çox zaman abortda görürlər. Hazırda dünyada ən aktual problemlərdən biri abortlardır. Abort etdirənlərin sayı ildən-ilə artır. Azərbaycanda abortlarla bağlı açıqlanan statistika ciddi narahatlığa səbəb olub. Belə ki, ötən il 15-19 yaşlı qızların abort sayı 1 238 olub. Qeyd edək ki, bu rəqəmlər rəsmi göstəricilərdir. Qeyri-rəsmi abortların sayını da əlavə etsək, açıqlanan rəqəmlərin sayı ikiqat çox olar. Təəssüf ki, valideynlər bəzi hallarda çıxış yolunu abortda görürlər. Əlbəttə, 15-19 yaşlı qızların hamilə qalması müxtəlif formada baş verib. Erkən nikahlar və ya zorlanma halları buna misal ola bilər.

"Vəfa" Sosial İctimai Birliyinin sədri Fatimə Hacıbəyli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, məktəblilərin abort etdirməsində erkən nikaha daxil olan qızların payı üstünlük təşkil edir. Bununla yanaşı, 15-19 yaşlı qızların abort etdirməsi statistikasında zorlama cinayətlərinin payı da var: "Buraya eyni zamanda aldatma, erkən nikah, gənclərin sərbəst seksual münasibətləri də daxildir. Uşaqlar daha sərbəst, daha rahat və seksual azad olmağa üstünlük verirlər. Təbii ki, təcrübəsizlik, eyni zamanda nəzarətsizlik, ailədə zorakılıq halları buna təsir göstərir. Hamilə qalan qızların hamısı o demək deyil ki, öz xoşu ilə cinsi əlaqədə olub. Həmin rəqəmlər içərisində zorlama halları da baş verib. Amma düşünürəm ki, məktəblilərin abort statistikası əsasən cinayətlər hesabına böyüyür. Bu mövzuda əsas diqqət göstərilməli məqam məktəblilərin abort etdirməsində gizli abortların payıdır. Əgər həmin gənclər valideynlərindən xəbərsiz gizli abort etdiriblərsə, bu artıq cinayət sayılır".

**Həmsöhbətimizin sözlərinə görə, məktəb yaşlı qız uşaqlarının abort statistikasında nəzarətsiz uşaqların da payı az deyil. Birlik sədri onu da əlavə etdi ki, zorlanma, təcavüz nəticəsində meydana gələn hamiləlik sonrasında qadınların psixoloji sağlamlığında yaranan ciddi problemlərdən biri də o olur ki, onlar travmatik olaraq bu uşağın zorlanma nəticəsində əmələ gəldiyi üçün özünə və onlara zərər verəcəyini düşünürlər. Bu barədə ciddi fikirləşdikdən sonra isə çarəni abortda tapırlar.**

*Günel CƏLİLOVA*

№ 172 (4070) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

27 SENTYABR 2019-cu il

# Saç artımının stimulyasiyası üçün qurğu təqdim olundu



**ABŞ-ın Viskonsin-Medison Universitetinin mühəndisləri saç artımının stimulyasiyası üçün istifadəçinin bədən hərəkətlərindən elektrik enerjisi yaradan qurğu hazırlayıblar.**

Qadcet o qədər yığcamdır ki, papağın altına yerləşdirilə bilər. "Chip.az" bildirir ki, dazlaşmanın elektrotrixogenez (elektrik sahəsinin köməyilə zəifləmiş və "yatmış" tük follikullarının stimulyasiyası) metodu ilə müalicəsi yenilik hesab edilmir. Onun əsas çatışmazlığı qurğuların böyük, batareya tutumunun məhdud olmasıdır. Yeni qurğunun effektivliyi hələ ki, yalnız siçanlar üzərində sınaqdan keçirilib. Növbəti mərhələ onun insan hüceyrələri ilə qarşılıqlı təsir qabiliyyətini yoxlamaqdan ibarətdir. Tədqiqatçılar qeyd ediblər ki, qurğu daha çox dazlaşmanın profilaktikası üçün nəzərdə tutulub. Deməli, o, saçların tökülməsinin ən erkən mərhələsində səmərəli olacaq. Texnologiya, təəssüf ki, saçların tamamilə itirildiyi dəri strukturunda yeni tük follikulları yaratmaq qabiliyyətinə malik deyil. Qurğunun kommersiya məqsədilə istehsalı haqqında yalnız bir neçə il sonra danışmaq mümkün olacaq. Çünki, patentli texnologiyanı insanlar üzərində sınaqdan keçirmək lazımdır.

## Dünyanın ən böyük sualtı bitkisi...



**Dünyanın ən böyük sualtı bitkisi Van gölündə tapılıb.** "Teleqraf.com" xəbər verir ki, tapılan bitkilərdən (mikrobialitlərdən) birinin 50 min, digərinin isə 70 min yaşı olduğu ehtimal edilir. Sualtı video mütəxəssisi Tahsin Ceylan mikrobialitlərin 23,4 metr hündürlükdə olduğunu bildirib. Mikrobiolitlərin dalğıc turizminə töhfə verəcəyi söylənilir.

## "Azercell" növbəti dəfə "İlin Telekommunikasiya Şirkəti" seçilib

**Ölkənin rəqəmsal həllər təqdim edən lider mobil operatoru "Azercell Telekom" biznes aləmində nüfuzlu sayılan Beynəlxalq "Stevie" mükafatına layiq görülüb.**

2018-ci ilin nəticələri və nailiyyətləri üzrə münsiflər heyətinin apardığı dəyərləndirmə nəticəsində "Azercell" növbəti dəfə "İlin Telekommunikasiya Şirkəti" nominasiyasında bürünc "Stevie" mükafatı qazanıb. Şirkətin respublika boyu şəbəkənin gücləndirilməsi və genişləndirilməsi istiqamətində uğurla tamamladığı böyükmiqyaslı layihələri, ölkənin telekommunikasiya sahəsinin inkişafına verdiyi töhfəsi, sərgilədiyi nümunəvi müştəri xidmətləri, innovativ həllər və məhsullar bazası, eləcə də həyata keçirdiyi sosial təşəbbüsləri bu mükafatı qazanmasına vəsilə olub.

Xatırladaq ki, uğurlu fəaliyyətinin nəticəsi olaraq, "Azercell" 2018-ci ili 49 % bazar payı ilə lider mövqedə başa vurub. Şirkət bu müddət ərzində daha 30 bölgədə 800-dən artıq 4G stansiyası qurub. Beləliklə də "Azercell"in 4G istifadəçilərinin sayı 1 milyonu keçib, internet istifadəsi isə 2017-ci il ilə müqayisədə 13 petabayta çatıb. Təkcə 2018-ci ildə "Azercell"in ölkənin telekommunikasiya sahəsinin inkişafına yatırdığı sərmayənin dəyəri 59,5 milyon ABŞ dolları təşkil edib.

Məlumat üçün bildirək ki, 2002-ci ildə təsis olunmuş "Stevie" mükafatının dəyərləndirmə prosesinə iş adamlarının, biznes sahəsində aparıcı mövqedə çalışan şəxslərin və təlimçilərin də yer aldığı 1000-ə yaxın mütəxəssis cəlb olunur. "Stevie" mükafatının məqsədi dünyanın müxtəlif ölkələrində uğur qazanmış şirkətlərin tanıdılmasıdır. Müsabiqənin missiyası nümunəvi təşkilatların profilinin yüksəldilməsi, mətbuat, işgüzar aləm və geniş ictimaiyyət arasında fərqlənən fərdlərin fəaliyyətinin qiymətləndirilməsidir.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## Elan

Bakı şəhəri, Yasamal rayonu ərazisindəki "ASAN xidmət" tərəfindən 02.01.1985-ci il təvəllüdlü Cabbarova Sənubər Şahzadə qızının adına verilmiş şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Şəki rayonu, Fazıl kənd sakini Məmmədova Rəmziyyə Ələsgər qızının və ailə üzvlərinin adına verilmiş torpağa mulkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

---

Şəki rayonu, Fazıl kənd sakini Məmmədov Nizami Əbülfəz oğlunun və ailə üzvlərinin adına verilmis JN: 18 saylı torpağa mulkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

---

Şəki rayonu, Kiş kənd sakini Musayev İsax Abdulhəşim oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 0017 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

---

Serttaş Leyla Rövşən qızına məxsus əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

---

Əhmədova Rahimə Hüseyn qızının adına, Bakı şəhəri, Xətai rayonu, 2226-cı məhəllədə yeləşən qeyri-yaşayış sahəsinə verilmiş 0104667 nömrəli çıxarış, texniki pasport itdiyi üçün etibarsız sayılır.

---

Mütəlov Toğrul Salami oğluna Bakı Biznes Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

---

Cabbarov Mirağa Səid oğluna Bakı Biznes Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır (AZE №15173665 Cəlilabad RPŞ).





**Qoç** - Bu gün baş verən hadisələr sizi sevindirir və ruhlandırır. Qarşınızda duran məqsədlər nə qədər çətindirsə, siz bir o qədər həvəs və entuziazmla o işlərə yanaşırsınız. Güclü müttəfiqlər tapmaq şanslarınız var.



**Buğa** - İşgüzar tərəfdaşlarınızla danışıqlarınız tərəqqilə nəticələnəcək. Birgə fəaliyyət olduqca məhsuldar alınacaq. Sizin kimi düşünən insanlarla işləməkdən zövq alırsınız. Rəhbərliklə münasibətləriniz qaydasına düşür.



**Əkizlər** - Qarşıda qoyulan məqsədləri doğru anlamaq və öz imkanlarınızı düzgün qiymətləndirməklə yaranmış çətinlikləri aşa biləcəksiniz. Romantik görüşlər ümidlərinizi doğruldur.



**Xərçəng** - Diqqətinizi işə cəmləsəniz, hər şeyi çatdıra biləcəksiniz. Özünüintizam ilə bağlı problem yaşamırsınız. Bir neçə iş görməli olsanız belə, dağınıqlıq yaranmır. Vacib imtahanlar vermək, iş görüşləri keçirmək olar.



**Şir** - Fikriniz bir qədər dağınıqdır, lakin bu, işləməyinizə, qarşıda duran məsələləri həll etməyinizə mane olmur. Vaxtında sakitləşə və gərginləşmiş vəziyyəti zarafatlarınızla yumşaltmağa qadirsiniz.



**Qız** - Vəziyyəti nəzarətdə saxlamaq üçün bir qədər güc itirirsiniz. Bununla yanaşı, bu gün bir qədər sakitləşmək və axın istiqamətində üzmək olar. Hadisələr sizin üçün əlverişli olan şəkildə cərəyan edir.



**Tərəzi** - Sizin energetik potensialınız olduqca yüksəkdir. Bu səbəbdən də, çoxsaylı işlərin olmasına baxmayaraq, özünüzdə yorğunluq hiss etmirsiniz. Hər şeyi düzgün qiymətləndirib doğru qərar verə bilirsiniz.



**Əqrəb** - Günün birinci yarısında qeyri-adi mənəvi yüksəliş hiss edirsiniz. Bu, sizin gün ərzində uğur qazanmağınız üçün mühüm rol oynayır. Qarşınızda hansı işin olmasından asılı olmayaraq, hər bir işin öhdəsindən rahatlıqla gəlirsiniz.



**Oxatan** - Gərgin və məhsuldar danışıqlarla dolu, işgüzar anlaşılmazlıqların yoluna qoyulduğu bir gündür. Yeni müttəfiqlər qazanmaq ümidi ilə yeni layihələrə başlaya bilərsiniz. Qarşınızda maraqlı məqsədlər dayanır.



**Oğlaq** - Bu gün çox işləmək lazım gələcək, lakin bu, sizi qorxutmayacaq. Bir neçə məsələni eyni vaxtda həll etmək imkanınız var. Düzgünlük və səmimilik danışıqlarda qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün köməkçi olacaq.



**Dolça** - Sakit və harmonik bir gündür. Bu gün tər töküb işləmədən hadisələrin gedişini izləmək olar. Sizin səmimiliyiniz diqqətdən kənarda qalmır. Bu gün sizi dəstəkləyən insanları tapmaq çətin olmayacaq.



**Balıqlar** - Bu günün həddən artıq uğurlu olacağı vəd olunur. Bir çox işlərin öhdəsindən gələ bilirsiniz və siz bunu gözəl başa düşürsünüz. Həyat eşqiniz və nikbinliyinizlə ətrafdakıların rəğbətini qazana bilirsiniz.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Ən təhlükəli parollar açıqlandı

**Almaniyanın "Avira" antivirus şirkətinin tərtibatçıları "ağıllı" qurğu və şəbəkə qurğularından istifadə zamanı ən təhlükəli parolları müəyyənləşdiriblər.**

"İctnews.az" bildirir ki, eksperiment üçün mütəxəssislər tərəfindən hakerlərə şəbəkə qurğularının (marşrutlayıcı, kamera və ya digər qurğular) siqnalını imitasiya edən "tələ" qurulub. Hakerlər istənilən login və parol birləşməsini daxil etməklə onlara daxil olmağa çalışıblar. Bundan sonra, şirkət hansı parol birləşmələrinin daha çox istifadə edilməsinin təhlilini aparıb. Eksperimentdə ümumilikdə 14 mindən çox insan iştirak edib. Məlum olub ki, seçim üzrə 25,6 faiz halda hakerlər login və parol yerlərini boş qoyublar. İstehsal zamanı quraşdırılan növbəti ən populyar kombinasiyalar "admin/QWestM0dem" və "admin/airlive" (24 faiz) olub. Üçüncü yerdə (23,4 faiz) standart "admin/admin", "support/support" və "root/root" birləşmələri qərarlaşıb. Şirkət nümayəndələrinin fikrincə, təhlükəli parollarla bağlı problemlər əsasən standart kombinasiyaları dəyişmək istəməyən istifadəçilərlə deyil, qurğu istehsalçıları ilə əlaqədardır. Belə ki, bəzən sadə insanlar haker hücumlarının törətdiyi təhlükə barədə düşünmürlər.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.